QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 241 (5472) 30 **dekabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# QURUCU PREZİDENT!

## *Dövlət başçımız İlham Əliyevin uğur formulu, nəinki ölkəmizdə, hətta beynəlxalq aləmdə də yüksək qiymətləndirilir*



Səh 3

## Bu il turizm sənayemiz üçün uğurlu il olub

2017-ci il ölkəmizin turizm sənayesində yaddaqalan il kimi dəyərləndirilir. AZƏRTAC xəbər verir ki, bu il ilk dəfə olaraq paytaxtımızda Bakı Şopinq Festivalı təşkil olunub. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” müvafiq Sərəncamına əsasən keçirilən festivalın təşkilatçısı Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosu idi. Şopinq festivalının təşkilinə cəlb edilmiş bütün dövlət qurumları birgə çalışaraq bu işə öz töhfələrini verə bildilər. Qısa müddətdə təşkil olunmasına baxmayaraq, festival uğurlu nəticələrlə yekunlaşdı. Bir ay müddətində Bakının əsas ticarət mərkəzlərinin, mağazalarının qoşulduğu bu festivaldan turistlərlə yanaşı, yerli sakinlər də geniş yararlana bildilər. Festival çərçivəsində alınan mallar üçün ƏDV-nin qaytarılması (“Tax -free”) imkanı ilə yanaşı endirimlər də alıcılar üçün cəlbedici idi.

Səh. 11


**Ölkəmizdə müasir yol infrastrukturunun yaradılması üçün mühüm işlər görülür**



2

**Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib**



4

**Milli Məclisin 2017-ci ildə son iclası keçirilib**



6

**Dünya azərbaycanlılarının siyasi və ideoloji birliyi milli həmrəyliyimizin aparıcı amilidir**



7

**“Mətbuat 2017-ci ildə dövlətimizin inkişafı prosesində əhəmiyyətli uğurları ilə yadda qaldı”**



6

**“ASAN Viza” ilə çoxdəfəlik vizalar veriləcək**



12

10 **Milli Parkda atəşfəşanlıq olacaq !**



13 **“Klub” azarkeşlərinin “beşinci kolon”u, yaxud riyakar demokratların ruporları**



16 **Ronaldo “Ballon d’Or” mükafatını geri qaytarmaq istəyir**



# Ölkəmizdə müasir yol infrastrukturunun yaradılması üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun açılışında iştirak edib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Abşeron rayonunda yenidən qurulan Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.

Qeyd edildi ki, Abşeron rayonunda 21 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun tikintisi üçün Prezident İlham Əliyevin 2017-ci il 9 iyun tarixli Sərəncamına əsasən 2,5 milyon manat vəsait ayrılıb. Tikinti işləri qısa müddətdə və yüksək səviyyədə həyata keçirilib. Yolun uzunluğu 9 kilometrə yaxındır. Ümumilikdə 12 metr enində yeni yol yatağı tikilib. Tikintidən sonra yolun hərəkət hissəsi 7-8 metrə qədər genişləndirilib.

Hər bir layihənin reallaşdırılması zamanı yollarda piyadaların da təhlükəsiz hərəkəti diqqətdə saxlanılan əsas məsələlərdən biridir. Mehdiabad-Digah-Məmmədli avtomobil yolunda yeni piyada səkiləri tikilib. Yenidənqurma işləri çərçivəsində avtomobil yolunun alt hissəsindən suların ötürülməsi üçün nəzərdə tutulan mövcud boruların və keçidlərin hamısı bərpa olunub. Tikinti işləri zamanı yolboyu yeni asfalt-beton örtüyü döşənib. Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun yenidən qurulması nəticəsində nəqliyyat vasitələrinin və əhalinin gediş-gəlişi xeyli asanlaşıb, onların tədarük etdikləri kənd təsərrüfatı məhsullarını və meyvə-tərəvəzi qısa vaxt ərzində istədikləri ünvanlara çatdırmalarına imkan yaranıb.

Dövlətimizin başçısına Mehdiabad-Fatmayı-Görədil avtomobil yolunun tikintisi haqqında da məlumat verildi. Bildirildi ki, 16 min nəfər əhalinin yaşadığı Mehdiabad, Fatmayı, Görədil yaşayış məntəqələrini birləşdirən avtomobil yolunun uzunluğu 6,5 kilometrdir. Prezident İlham Əliyevin Sərəncamına əsasən bu yolun tikintisinə 1,8 milyon manat vəsait ayrılıb.

Avtonəqliyyat vasitələrinin rahat və maneəsiz şəkildə hərəkətini təmin etmək üçün paytaxt Bakıda aparılan kompleks tədbirlər çərçivəsində Azadlıq prospektinin Binəqədi rayonundan keçən hissəsi və Binəqədi şosesi yenidən qurularaq bu ərazidə müasir yol infrastrukturu yaradılıb. Azadlıq prospektinin Ziya Bünyadov prospektindən Biləcəri-Baksol yolunadək 3,1 kilometrlik hissəsi tamamilə yenidən qurulub. Azadlıq prospekti ilə Cəfər Xəndan küçəsinin kəsişməsində yaranan sıxlığı aradan qaldırmaq məqsədilə sərnişin avtobuslarının hərəkəti Cəfər Xəndan küçəsindən Süleyman Sani Axundov küçəsinədək olan hissədə yan yola yönəldilib və bu hissədə 8 müasir avtobus dayanacağı quraşdırılıb. Azadlıq prospektində piyadaların yolu təhlükəsiz keçmələri üçün Süleyman Sani Axundov küçəsi ilə kəsişmədə və Rəsulzadə qəsəbəsinin mərkəzində iki yerüstü piyada keçidi tikilib. Azadlıq prospektinin yenidən qurulması ilə yanaşı, bu ərazidə yerləşən və prospektə çıxan Süleyman Sani Axundov, Şövkət Məmmədova, Cəfər Xəndan, İbrahimpaşa Dadaşov küçələri də əsaslı təmir edilib.

Binəqədi şosesində yenidənqurma işləri iki mərhələdə aparılıb. Birinci mərhələdə yolboyu yararsız vəziyyətdə olan 2800 metr uzunluğunda kanalizasiya, 3000 metr uzunluğunda müxtəlif diametrli su xətləri "Azərsu" ASC tərəfindən yenisi ilə əvəz olunub, ətrafdakı evlərdən, sənaye və iaşə obyektlərindən yola doğru axıdılan məişət-çirkab sularının qarşısı alınıb. Yağış və qar sularının nizamlı axınının təmin edilməsi məqsədilə Binəqədi şosesindən Böyükşor gölünə 1100 metr uzunluğunda boru xətti çəkilib. Yolun yenidənqurma işlərinin ikinci mərhələsi də qısa müddətdə başa çatdırılıb. Belə ki, vətəndaşların yolun hər iki kənarı ilə rahat və təhlükəsiz şəkildə hərəkətini təmin etmək üçün yeni piyada səkiləri inşa olunub, avtobusların ümumi hərəkətə maneə yaratmadan dayanacaqlara giriş-çıxışını təmin etmək məqsədilə 11 yerdə əlavə hissə tikilib və müasir avtobus dayanacaqları quraşdırılıb. Binəqədi şosesinin yenidən qurulması rayonun Rəsulzadə, Binəqədi, Biləcəri, Baksol qəsəbələrində yaşayan əhaliyə, həmçinin şəhərin mərkəzindən Mehdiabad, Fatmayı, Pirşağı, Digah və digər qəsəbələrə getmək istəyən nəqliyyat vasitələri sahiblərinə rahat yol infrastrukturundan istifadə etməyə imkan verəcək.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasəti hər bir vətəndaş öz şəxsi həyatında hiss edir. Qeyd edək ki, bu istiqamətdə icra edilən layihələrin coğrafiyası durmadan genişlənir və bütün bunlar hər bir Azərbaycan insanının rahat yaşamasının təminatına yönəlib. Dövlətimizin başçısı Mehdiabad-Digah-Məmmədli avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonra xatirə şəkli çəkdirildi.

x x x

Daha sonra Prezident İlham Əliyev "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna baxdı.

Qoruqdakı vəziyyətlə tanış olan dövlətimizin başçısı burada şəraitin dözülməz olduğunu bildirdi. Qeyd etdi ki, bu qoruğa həm Azərbaycan vətəndaşları, həm də çoxsaylı turistlər gəlir və buradakı şərait ölkəmizin bugünkü inkişaf səviyyəsinə uyğun deyil.

Prezident İlham Əliyev aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq verdi ki, bu dözülməz vəziyyət qısa müddət ərzində aradan qaldırılsın, Azərbaycan vətəndaşları və turistlər üçün yüksək standartlara cavab verən şərait yaradılsın.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 947-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017 ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "ASAN xidmət" işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında Sərəncamı imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 882-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncamı imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamə"də, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu"nda, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin ümumi say tərkibi"ndə və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

# QURUCU PREZİDENT!

## *Dövlət başçımız İlham Əliyevin uğur formulu, nəinki ölkəmizdə, hətta beynəlxalq aləmdə də yüksək qiymətləndirilir*



***Azərbaycan son 14 ildə dövlətçilik tarixinin ən güclü, möhtəşəm və qüdrətli dövrünü yaşamaqdadır. Qazanılan uğurlar, nail olunan inkişaf göstəriciləri bütün sferaları əhatə edir. Müstəqil və demokratik Azərbaycan elə bir yüksəlişin və tərəqqinin rəmzinə çevrilib ki, bu amil sərhədlərimizdən kənarlarda da vurğulanmaqdadır. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin şah və bənzərsiz əsəri olan müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin müdrik, qətiyyətli siyasəti nəticəsində, mükəmməl inkişaf modelinə malikdir. Müxtəlif sahələr üzrə əldə etdiyi yüksəliş dinamikası, əslində, bir çox dünya ölkələri üçün nümunəyə çevrilib. Əbəs yerə deyil ki, zaman-zaman müxtəlif yerli və xarici sosioloji sorğu mərkəzləri, dünyanın bir çox nüfuzlu media qurumları ölkə başçımızın uğurlu fəaliyyətini əks etdirən daxili və xarici siyasəti barədə geniş materiallarla çıxış edir, Onu qurucu Prezident kimi qiymətləndirirlər. Bu isə, təsadüfi fikirlər deyil, bilavasitə reallığın və gerçəkliyin məntiqi isbatıdır.***

### Xalqını ailəsi kimi qiymətləndirən Prezident!

Beləliklə, Prezident İlham Əliyevin uğur formulu, nəinki ölkəmizdə, beynəlxalq aləmdə də yüksək qiymətləndirilir. O da təsadüfi deyil ki, dekabrın 24-də, anadan olmasının 56-cı ildönümündə Prezident İlham Əliyev bu əlamətdar tarixi yenə də iş başında, xalqına xidmət etməklə keçirdi.

Bu arada, ölkə başçımızın hər zaman öz sadəliyi ilə seçilməsi, hətta ən əlamətdar günlərini belə, xalqı ilə birgə qeyd etməsi hər bir azərbaycanlıda böyük qürur hissi yaratmaqdadır. Xatırlada bilərik ki, daha öncəki doğum günlərinin birini 24 dekabr 2011-ci ildə Taxtakörpüdə laçınlı qaçqın və məcburi köçkünlərlə keçirməsi və orada vurğuladığı sözləri tarixi kəlama çevrilib. Üstündən illər keçsə də, o unudulmaz görüş yaddaşların şirin xatirəsi kimi hələ də yaşayır. Dövlət başçısının "mənim ailəm, doğmalarım sizsiniz" deyə ortaya qoyduğu isti və doğma münasibət bu gün də əvəzlənməsi mümkünsüz olan əsas mövzusudur. Özünün də, qeyd etdiyi kimi, Prezident ad günləri keçirməyi xoşlamır. Lakin ölkə başçısı bu xüsusi günü məcburi köçkünlər arasında keçirməyə qərar vermişdi. Bunun üçün isə, məhz Taxtakörpü qəsəbəsini seçmişdi, ömrünün unudulmaz anlarında istəmişdi ki, ətrafında özünə hər zaman doğma və əziz sandığı xalqı olsun!

### "Qara Şəhər"dən "Ağ Şəhər"ə mükəmməl keçid!

Dekabrın 24-də Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də bir sıra layihələrin açılışında olublar. Məhz Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə paytaxtdakı "Qara Şəhər" artıq öz yerini əzəmətli "Bakı Ağ Şəhər"ə verməkdədir. Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu mükəmməl və nəhəng layihə də artıq bir gerçəkliyə, bir reallığa çevrilir, miqyası və keyfiyyətinə görə diqqətləri özünə cəlb edir. Eləcə də, "Bakı Ağ Şəhər"in tikintisi və burada infrastrukturun yaradılması zamanı Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, kompleks iş aparılır, bütün mövcud tələblər və gələcək inkişaf nəzərə alınır. Maraqlı məqamlardan biri də budur ki, yerli şirkətlərlə yanaşı, dünya şöhrətli iqtisadi qurumlar da bu layihəyə cəlb edilib. Məhz bu baxımdan, "Bakı Ağ Şəhər", nəinki respublikamızda, eləcə də, beynəlxalq səviyyədə tanınan layihədir.

Biz, burada Prezident İlham Əliyevin hələ bir neçə il öncə, Bakının inkişafı istiqamətində keçirdiyi müşavirələrin birində irəli sürdüyü fikirlərini xatırlaya bilərik. Dövlətimizin başçısı Bakının və paytaxtın ətrafındakı qəsəbələrin inkişafı məsələsinə də, ayrıca toxunaraq demişdir ki, onların inkişafı üçün nə lazımdırsa, ediləcəkdir: "Bakının ətrafında yerləşən qəsəbələrdə 800 mindən artıq əhali yaşayır. Bu, özlüyündə böyük bir şəhərdir və bu qəsəbələr şəhər səviyyəsinə gətirilməlidir. Bunu etmək üçün, yenə də deyirəm, maliyyə vəsaiti lazımdır - o, bizdə vardır. Siyasi iradə lazımdır - o da bizdə vardır. Artıq bizdə peşəkar kadrlar da vardır. Texnikamız, şirkətlərimiz vardır ki, bütün bu işləri onlar görə bilərlər".

Artıq bütün bunlar öz təsdiqini tapıb və qarşıda daha böyük və daha nəhəng layihələrin həyata keçirilməsi nəzərə tutulub.

### Xalqının sosial rifahını yüksəldən dövlət başçısı!

Elə həmin gün, dekabrın 24-də Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli sosial binanın təməlqoyma mərasimində iştirak edib. Məlumatlarda da bildirilir ki, Suraxanı rayonu ərazisində, Hövsan qəsəbəsinin yaxınlığında inşa olunacaq Hövsan Yaşayış Kompleksi Bakının sürətlə inkişaf edən şərq hissəsində, Xəzər sahilindən cəmi 2 kilometr məsafədə, yaşayış və istirahət üçün olduqca rahat bir məkanda yerləşəcək. Ümumiyyətlə, bu kimi sosial layihələrin həyata keçirilməsi bir ənənə halını alıb və söz yox ki, bənzər layihələrin reallaşdırılması bundan sonra da davam edəcək. İnsanların sosial-rifah hallarının daha da yaxşılaşdırılması, insanların güzəştli mənzillərə sahib olmaları istiqamətində atılan hər bir addım, bilavasitə xalqın maraqlarının təminatına hesablanmış müdrik siyasətin tərkib hissəsidir. Çünki Ulu Öndər Heydər Əliyev ideologiyasının əsasında dövlətin təməlinin xalq olduğu vurğulanır . Bu baxımdan, Prezident İlham Əliyev daim öz çıxışlarında insan amilini əsas olaraq qiymətləndirir və hər zaman xalqının yanında olduğunu əməli, qətiyyətli fəaliyyəti ilə sübuta yetirmiş olur.

Nəticə olaraq, qeyd edə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyev tarixin ən güclü, ən möhtəşəm, ən inkişaf edən Azərbaycanın şəriksiz Lideri, xalqının taleyini onilliklər boyu etibar etməyə hazır olduğu alternativsiz rəhbərdir. Dövlət başçımızın çıxışlarının birində söylədiyi bu fikirlər - "Azərbaycan xalqı taleyinin sahibidir və Azərbaycan heç vaxt tarixdə bu qədər güclü olmamışdır. Heç vaxt müstəqilliyimiz bu qədər möhkəm olmamışdır" - sözləri, əslində, ötən 14 ili xarakterizə edən ən uğurlu fakt, eləcə də, böyük inkişafa doğru gedilən yolda bizə yeni hədəflər müəyyənləşdirən məramdır. Beləliklə, Azərbaycan dövləti və xalqı Prezident İlham Əliyevin rəhbərliyi altında daha böyük və daha nəhəng uğurlara doğru addımlamaqdadır. Bu gün heç bir vətənsevər azərbaycanlı inkişaf və tərəqqi gerçəkliyinə zərrə qədər də şübhə etmir, çünki bu ölkənin rəhbəri Cənab İlham Əliyevdir!

**Rövşən NURƏDDİNOĞLU**

# Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib

Dekabrın 29-da Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları ərəfəsində "Buta" sarayında uşaqlar üçün ənənəvi şənlik təşkil edib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, nəvəsi, Fondun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva uşaqların bayram şənliyində iştirak ediblər.

Uşaqlar şənliyin keçirildiyi əyləncə məkanına onlar üçün ayrılmış avtobuslarla gətirildilər. Xüsusi zövqlə bəzədilən və balacaların ixtiyarına verilən bu məkanda uşaqları sevindirmək üçün nağıllar aləmindəki kimi ab-hava yaradılmışdı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində uşaq evlərinin, internat məktəblərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik təşkil edilir. Bu il də istisna olmadı.

Bayram şənliyi ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlarla görüşlərindən, gənc nəslə diqqət və qayğısından bəhs edən videoçarxın nümayişi ilə başladı.

Hər il olduğu kimi, bu il də şənlik iştirakçılarına yeni tərtibatda hazırlanan proqram təqdim edildi. Bu proqram, sarayda qurulan və əsl bayram əhval-ruhiyyəsi bəxş edən







dekorasiyalar uşaqların sevincini daha da artırdı. Bərbəzəkli sarayda rəqslərə qoşulan, mahnılar ifa edən, məharətlərini göstərən, möcüzələrdən heyrətlənən uşaqların sevinci hədsiz idi. Çünki Heydər Əliyev Fondunun təşkil etdiyi bayram və bu şənlikdə tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı. Bayram şənliyində uşaqların təbəssümü bu hədiyyəni onlara bəxş edən Heydər Əliyev Fondunun fəaliyyətinə verilən ən yüksək qiymət idi. Hər il olduğu kimi, bu dəfə də balacalar onların ən böyük himayədarı, Mehriban Əliyevanın ətrafına toplaşdılar. Azərbaycanın Birinci vitse-prezidenti uşaqların sevinc və fərəhini bölüşdü, onlarla səmimi söhbət etdi.

Bayram şənliyi üçün hazırlanan musiqili kompozisiyada peşəkar incəsənət ustaları ilə yanaşı, uşaq kollektivləri də maraqlı proqramla çıxış etdilər. Balacaların sevimli cizgi filmlərinin qəhrəmanlarını canlandıran personajlar şənlik iştirakçılarında gözəl həyəcan hissləri doğurdu. Səhnəciklər, oynaq, şux mahnılar, rəqslər bayram tədbirini daha da rəngarəng etdi. Qış nağılını xatırladan sarayda uşaqlar bayram ərəfəsində sevimli qəhrəmanların əhatəsində oldular, onlarla birlikdə şənləndilər. Heydər Əliyev Fondu yarandığı gündən nəcib, xeyirxah və humanist insani dəyərlərə əsaslanaraq, başlıca fəaliyyət istiqamətlərindən biri kimi cəmiyyətdə xeyriyyəçilik institutunun inkişafını seçib. Fondun bu istiqamətdə dövlətin fəaliyyətinə hərtərəfli dəstəyə əsaslanan dəyərli layihələri digər qurumlar üçün nümunə sayıla bilər. Fondun xeyriyyəçilik fəaliyyətinin əsas motivini insanlara sevgi və təmənnasız olaraq xeyirxah əməllər təşkil edir. Azərbaycanın Birinci vitse-prezidenti çıxışlarında bu fikri dəfələrlə vurğulayıb: "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin, onların problemlərinə biganə qalmayaq". Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların problemlərinin həllinə xüsusi diqqət yetirir. Fondun "Uşaq evlərinin və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində ölkəmizdəki uşaq müəssisələri əsaslı təmir olunur, yeni avadanlıqlarla təchiz edilir.



Ardı Səh. 5

# Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib





**Əvvəli-Səh-4**

Cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilməklə, ümumxalq mənafeləri baxımından bir sıra strateji layihələri qısa müddətdə uğurla gerçəkləşdirən Heydər Əliyev Fondunun 13 illik çoxşaxəli fəaliyyəti də məhz bu nəcib dəyərlərə söykənir. Bayram şənliyində çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva qeyd edib ki,

Yeni il bayramı insanların ən sevdiyi bayramlardan biridir. Adətən, insanlar bu bayramı ailə üzvləri, doğmaları, ən yaxınları ilə qeyd edirlər:

"Biz də bu gün Yeni il bayramını böyük doğma ailə kimi bərabər qeyd edirik. Ümidvaram ki, 2017-ci il sizin hər biriniz üçün, bütün Azərbaycan xalqı üçün uğurlu oldu. Ölkəmizdə abadlıq, quruculuq işləri davam edir, şəhərlərimiz, kəndlərimiz, regionlarımız gözəlləşir, inkişaf gedir. Bildiyiniz kimi, 2017-ci il ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmuşdu. Azərbaycan İslam aləminin ayrılmaz hissəsidir. Biz öz dinimizə, tariximizə, mədəniyyətimizə böyük hörmətlə, böyük diqqətlə yanaşırıq. Eyni zamanda, biz dünyaya açıq ölkəyik. Biz digər dövlətlərlə əməkdaşlığımızı qardaşlıq və qarşılıqlı hörmət əsasında qurmaq istəyirik. Bildiyiniz kimi, bu il paytaxtımızda IV İslam Həmrəyliyi Oyunları böyük uğurla keçdi, idmançılarımız bizi dəfələrlə sevindirdilər, bizim bayrağımız ucaldı, himnimiz səsləndi. Eyni zamanda, bu Oyunlar bütün İslam ölkələrinin nümayəndələrini bir araya gətirərək əsl həmrəylik bayramı oldu, əsl dostluq və qardaşlığ təntənəsinə çevrildi.

2017-ci ildə təkcə Azərbaycan üçün yox, bütün region üçün çox vacib irimiqyaslı layihələr həyata keçirildi. Bildiyiniz kimi, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi, "Əsrin kontraktı"nın 2050-ci ilə qədər davam edəcək ikinci mərhələsinə imza atıldı. Digər sahələrdə işlər davam edir. Biz qarşımızdakı məsələləri ardıcıl olaraq həll edirik, problemləri aradan qaldırırıq. Ölkəmizdə yeni məktəblərin, uşaq bağçalarının tikintisi və təmiri davam edir, uşaqların ən yüksək səviyyədə təhsil alması üçün bütün şəraitlər yaradılıb. Bakı şəhərimiz gündən-günə gözəlləşir. Regionlarımız gözəlləşir, yeni yollar salınır, ölkəmiz abadlaşır.

Mən ümidvaram ki, 2017-ci il sizin həyatınızda xoş anlarla, sevinc dolu hadisələrlə qalacaq. Ümidvaram ki, bu il sizin üçün uğurlu il idi. Mən sizin hər birinizə 2018-ci ildə möhkəm cansağlığı, uğurlar, xoşbəxtlik arzulayıram. Arzulayıram ki, bizim balalarımız savadlı, bilikli, tərbiyəli böyüsün. Arzulayıram ki, onlar öz dostları, yaxınları, ətraflarındakı insanlar ilə xoş niyyətlə, hörmətlə davransınlar. Qoy, sizin yolunuz açıq, ürəyiniz işıqla dolu olsun! Mən sizin hər birinizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

Əziz uşaqlar, onu da bilməlisiniz ki, bu bayram şənliyinin hazırlanmasında bir çox insanın əməyi var. Artıq 10 ildən çoxdur ki, bizim məşhur sənət adamlarımız, musiqiçilərimiz, artistlərimiz, sizinlə bərabər burada, bu gözəl "Buta" sarayında Yeni ili qeyd edirlər, sizin üçün çox gözəl, şən ab-hava yaradırlar. Gəlin bu gözəl, qayğıkeş insanları birlikdə alqışlayaq və onlara öz minnətdarlığımızı bildirək. Sizin hər birinizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, ölkəmizə əmin-amanlıq və sülh arzulayıram. Qoy, Allah hər birinizi və ölkəmizi hər zaman qorusun! Çox sağ olun."

x x x

Beləliklə, Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli fəaliyyətin bir hissəsi olan bayram şənliyi yüzlərlə uşağı sevindirdi. Şənliyin sonunda hər bir iştirakçıya Heydər Əliyev Fondunun hazırladığı bayram hədiyyələri təqdim olundu. Fondun balacalara hədiyyə etdiyi bu bayram şənliyi uşaqların yaddaşında silinməz iz qoydu.





səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 dekabr 2017-ci il

# Milli Məclisin 2017-ci ildə son iclası keçirilib

Dekabrın 29-da Milli Məclisin 2017-ci il payız sessiyasında son iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası Milli Məclisin sədri Oqtay Əsədov aparıb.



Gündəliyin təsdiqindən sonra deputatlar Fazil Mustafa, Fərəc Quliyev, Qüdrət Həsənquliyev, Zahid Oruc, Qənirə Paşayeva, Rasim Musabəyov, Əflatun Amaşov, Aytən Mustafazadə, Tahir Kərimli, Fuad Muradov, Musa Qasımlı, Hikmət Məmmədov, İlham Əliyev ölkə gündəmindəki vacib məsələlərlə bağlı fikirlərini bildiriblər. Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

Əvvəlcə hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakiminin təyin edilməsi haqqında məsələ ilə əlaqədar məlumat verib. Bildirilib ki, ölkə Prezidenti tərəfindən Konstitusiyaya müvafiq olaraq Qabil Neymət oğlu Məmmədovun Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin hakimi vəzifəsinə namizədliyi təqdim edilir. Komitə sədri fikirlərini bildirdikdən sonra namizədin təqdimatı təsdiqlənib.

Sonra parlament sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikası Silahlı Qüvvələri taqımlarının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında" Milli Məclisin 2002-ci il 15 noyabr tarixli Qərarında dəyişikliklər edilməsi barədə sənədi təqdim edib. Birinci vitse-spiker bildirib ki, qərara təklif olunan dəyişiklik ölkəmizdə keçirilmiş sonuncu referendum nəticəsində Konstitusiyaya edilmiş dəyişikliklərlə bağlıdır. Vitse-spiker sənəddə aparılan redaktə xarakterli dəyişiklikləri şərh edib. Sənəd səsə qoyularaq qəbul edilib.

Ziyafət Əsgərov "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Birinci vitse-spiker bildirib ki, hazırda qüvvədə olan qanun 1991-ci ildə qəbul olunub. Yeni qanun layihəsinin qəbul olunması zərurəti isə ölkəmizdə keçirilmiş sonuncu referendum nəticəsində Konstitusiyaya edilmiş dəyişikliklərdən sonra yaranıb. Bu sənəd Silahlı Qüvvələrimizin hüquqi bazasının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Qanun layihəsi çərçivə xarakterlidir və ümumi prinsipləri müəyyən edir. Ziyafət Əsgərov sənədin əvvəlki oxunuşlarda müzakirəsindən sonra aparılan dəyişiklikləri diqqətə çatdırıb. Qanun layihəsi səsvermə yolu ilə təsdiqlənib. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin təsdiq edilməsi barədə" qanun layihəsini təqdim edib. O, sənədin əhəmiyyəti və qardaş ölkələrlə strateji əlaqələrin genişləndirilməsi sahəsində görülən işlərdən danışıb. Deputatlar Bəyannaməni səsvermə yolu ilə təsdiqlədilər. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə sənədlə əlaqədar məlumat verib. Saziş səsə qoyularaq qəbul edilib. Sonra aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Azərbaycan və Türkmənistan Hökuməti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Komitə sədri hazırda dünyada ətraf mühitin qorunması, bitki və heyvan sağlamlığının mühafizəsi sahəsində görülən işlərə dəstək olaraq belə bir sənədin qəbul edilməsinin zəruriliyini vurğulayıb. Sənəd səsə qoyularaq təsdiqlənib.

Birinci vitse-spiker Ziyafət Əsgərov "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Sənədlə bağlı məlumatda bildirilib ki, qanun layihəsi 18 maddədən ibarətdir. Sazişdə hər iki tərəflə əməkdaşlıq edəcək orqanların adları, əməkdaşlığın formaları, yardımın növləri və digər məsələlər öz əksini tapır. Saziş müddətsiz olaraq bağlanılıb. Qanun layihəsi səsvermə yolu ilə təsdiq edilib.

Sonra regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə sənədləri birlikdə şərh edib. Qeyd olunub ki, hər iki sənəddə dəfn mərasimləri ilə əlaqədar bələdiyyələrin vəzifələri müəyyənləşdirilir. Sənəddə qəbiristanlıqların salınması və idarə olunmasında bələdiyyələrin üzərinə düşən vəzifələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun həyata keçirilməsini təmin etmək məqsədilə bəzi dəyişikliklər edilib. Bildirilib ki, qanunun 7.2-ci maddəsinə təklif edilən dəyişikliyə əsasən qəbiristanlıqların yerləşdiyi bələdiyyə torpaqları xüsusi mülkiyyətə verilə bilməz. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında sənədlə bağlı məlumat verib. Qeyd edilib ki, qanunvericiliyin dəqiqləşdirilməsi, gömrük nəzarəti zamanı şəxsi yoxlamanın (videoçəkilişdən istifadə etməklə şəxsi yoxlamanın aparılması) ilə bağlı məsələləri tənzimləmək məqsədilə hazırlanıb. Qanunla bağlı hal şahidlərinin iştirakı yalnız şəxsi yoxlama zamanı videoçəkilişdən istifadə edilmədiyi hallarda məcburi olacaq. Eyni zamanda, şəxsi yoxlama zamanı şəxsin soyundurulması zərurəti yarandığı hallarda videoçəkilişdən istifadəyə yol verilməyəcək. Müzakirələrdən sonra sənəd səsvermə yolu ilə təsdiqlənib.

Sonra Ziyad Səmədzadə "Sahibkarlıq fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədi şərh edib. Qeyd olunub ki, qanun layihəsi sahibkarlıq subyektlərinə dövlət dəstəyi və güzəştlərin tətbiqinin səmərəliliyini artırmaq üçün onların mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri üzrə təsnifləşdirilməsi məqsədilə hazırlanıb. Sənəd səsvermə yolu ilə təsdiqlənib.

Sonra əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Turizm haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi şərh edib. Komitə sədri bildirib ki, sənəddə aparılan dəyişiklik Miqrasiya Məcəlləsinə uyğunlaşdırma xarakteri daşıyır. Qanunun 7.1-ci (Turizm vizası) maddəsinə edilmiş əlavəyə əsasən, elektron vizanın verilməsi ilə bağlı müraciətə ən geci 3 iş günü müddətində baxılır, imtina üçün əsas olmadıqda viza rəsmiləşdirilərək müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə, müraciət etmiş şəxsin elektron poçt ünvanına bu barədə məlumat göndərilir. Bəndə edilən əlavəyə əsasən, elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə buna ən geci 3 saat müddətində baxılacaq. Komitə sədri yeni əlavənin çox əhəmiyyətli və vacib olduğunu vurğulayıb, dəyişikliyin turizmin inkişafına, bu sahənin daha da təkmilləşdirilməsinə xidmət edəcəyini qeyd edib. Bildirilib ki, bu yenilik əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəyə gəliş-gedişini asanlaşdırmış olacaq. Sənəd səsə qoyularaq təsdiqlənib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında sənədlə bağlı danışarkən bildirib ki, təklif olunan dəyişikliklər əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəyə gediş-gəlişi zamanı çoxdəfəlik vizaların verilməsini vahid elektron portalın vasitəsilə sürətləndirmək xarakteri daşıyır. Qeyd edilib ki, sənəddə bunun üçün 90 gün müddət nəzərdə tutulur. Sənəd səsə qoyularaq təsdiqlənib. Sonra Əli Hüseynli "Yol hərəkəti haqqında" Qanunda təklif olunan dəyişiklikləri şərh edərkən bildirib ki, bu, ötən il qəbul edilmiş "Avtomobil yolları haqqında" Qanuna edilmiş dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Dəyişikliklər redaktə xarakterlidir. Bu sənəd də səsə qoyularaq təsdiq edilib.

Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində edilən dəyişiklikləri də diqqətə çatdırıb. Qeyd edilib ki, sənəddəki dəyişikliklər texniki xarakterlidir. Sənəd səsvermə yolu ilə təsdiq edilib. İclasda deputat Məlahət İbrahimqızı "Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti"nin mətnini oxuyub. Müraciət təsdiq edilib. İclasın sonunda Milli Məclisin sədri Oqtay Əsədov 2017-ci il payız sessiyasının sona çatması ilə əlaqədar yekun çıxış edib. Daha sonra spiker Milli Məclis payız sessiyasını bağlı elan edib. Dövlət himni səsləndirildikdən sonra Milli Məclisin payız sessiyası öz işini başa çatdırıb.

# "Mətbuat 2017-ci ildə dövlətimizin inkişafı prosesində əhəmiyyətli uğurları ilə yadda qaldı"



"Yola saldığımız 2017-ci il Azərbaycan xalqı üçün bir çox əhəmiyyətli hadisələrlə yadda qaldı. Bu ilin əvvəlində Prezident İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsi Onun vaxtında və dəqiqliklə atdığı çoxsaylı mütərəqqi addımlarından biri olaraq qiymətləndirilir". Bu fikirləri yap.org.az saytına "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev 2017-ci ildə əldə edilən nailiyyətləri şərh edərkən deyib. "Ümumiyyətlə, dövlət başçımızın təşəbbüsləri sayəsində ölkəmizdə müxtəlif beynəlxalq konfranslar və forumlar keçirildi, İslam Həmrəyliyi Oyunları və s. tədbirlər baş tutdu"- deyən, Bəhruz Quliyev bildirib ki, məhz bu baxımdan, ölkəmiz İslam ölkələri sırasında təşəbbüskar olmağı ilə yanaşı, eyni zamanda, beynəlxalq aləmdəki liderlik mövqeyini ortaya qoymuş oldu: "İstər dünyada, istərsə də müsəlman ölkələrində sülhün və əmin-amanlığın bərqərar olması istiqamətində atılan hər bir addım öz müsbət nəticələrini vermiş oldu. Xüsusilə, mətbuatımız bu cür böyük tədbirlərin işıqlandırılmasında, dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında öz əhəmiyyətli rolunu oynadı. Qəzetlərdə və saytlarda, sosial şəbəkələrdə, keçirilən bütün tədbirlər çox peşəkarlıqla ictimailəşdirildi. Əbəs deyil ki, Azərbaycanda baş verən ictimai-siyasi, mədəniyyət və idman hadisələri ilə bağlı dərc edilən məqalələr xarici media qurumlarında da yayıldı".

Bəhruz Quliyev onu da qeyd edib ki, ötən il ərzində digər sahələrlə yanaşı, mətbuatımızın inkişafı istiqamətində də ardıcıl, davamlı və uğurlu addımlar atıldı. "Ümumiyyətlə, qeyd edilənlərlə yanaşı, media sahəsi dinamik şəkildə fəaliyyət göstərdi."-deyə vurğulayan Bəhruz Quliyevin sözlərinə görə, bu, ilk olaraq Azərbaycan mətbuatının daha böyük tərəqqiyə nail olmasının göstəricisi kimi qiymətləndirilə bilər: "Çünki Azərbaycan dövləti bu sahəyə kifayət qədər diqqət və qayğısını göstərməkdədir. Belə ki, həyata keçirilən dövlət siyasətinin işıqlandırılması həm də bu siyasətin tərkib hissəsi olaraq anlaşılır. Belə olan halda, ölkəmizdə mətbuatın daha böyük nailiyyətlərə imza ata bilməsi üçün ölkə rəhbərimiz tərəfindən zaman-zaman mühüm qərarlar verilməkdədir. Təbii ki, mətbuat da öz növbəsində ona göstərilən diqqət və qayğı qarşılığında dövlətimizin inkişaf prosesinə qoşulmaqla və dünyada bunun real mənzərəsini yaratmaqla, peşəkarlığını artırmaqla öz töhfəsini verir. Yəni mətbuat cəmiyyətin güzgüsü olmaqla həm də maarifləndirici bir sahədir. Cəmiyyətin maarifləndirilməsində mühüm yeri və rolu olan Azərbaycan mətbuatı fəaliyyəti ilə bunu təsdiq edib. Beləliklə, yola saldığımız ildə dövlətimizin inkişafı və tərəqqisi prosesində mətbuatımız üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlib".

"Bu il mətbuat işçiləri üçün ikiqat bayram və sevinc hissləri ilə də yadda qalıb"-qeyd edən Bəhruz Quliyev Prezident İlham Əliyevin sərəncamı əsasında jurnalistlər üçün tikilən ikinci binadakı 255 mənzilin media təmsilçilərinin ixtiyarına verildiyini xatırladıb və bildirib ki, bu, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün atılan növbəti addım idi: "Onu da xatırlatmaq istərdim ki, artıq üçüncü binanın inşasına başlanılıb və Prezident İlham Əliyev jurnalistlərlə görüşdəki nitqində bu kimi sosial layihələrin davamlı xarakter alacağını xüsusilə vurğulayıb: "Ümumiyyətlə, bu layihə dünyaya bir yeni model olaraq təqdim edilib və bu kimi mükafatlandırma kütləvi olaraq reallaşdırılıb".

Baş redaktor Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət dəstəyi Fondunun və Mətbuat Şurasının yola salınan il ərzindəki uğurlu fəaliyyəti barədə fikir bildirib: "Əlbəttə, Azərbaycan jurnalistikasının inkişafında Kütləvi İnformasiya Vasitələrinə Dövlət dəstəyi Fondunun gördüyü işlər və əldə edilən uğurlu nəticələr də göz qabağındadır. Belə ki, 2008-ci ildə önə sürülən konsepsiyaya uyğun olaraq, mətbuatın fəaliyyəti stimullaşdırılıb, Fondun həyata keçirdiyi müxtəlif layihələr, çoxsaylı yazı müsabiqələri, araşdırma yazılarının işıqlandırılması cəmiyyətim maarifləndirilməsində, eləcə də jurnalistlərin peşəkarlıqlarının artırılmasında mühüm rolunu oynayıb. Həmçinin, Mətbuat Şurasının da fəaliyyətində bir sıra uğurlar əldə olunub. Reketçiliklə mübarizə istiqamətində görülən işlər öz səmərəli bəhrəsini verib. Ümumiyyətlə, yola saldığımız ildə əldə edilən hər bir uğur növbəti uğurlara doğru atılan mütərəqqi addım kimi dəyərləndirilə bilər. Bu xüsusda, tam əminliklə deyə bilərik ki, biz 2017-ci ili uğurla başa vurmaqla yanaşı, qarşıdan gələn 2018-ci ildə Azərbaycan mətbuatının daha böyük nailiyyətlərə imza atmış olacağı qənaətinə gələ bilərik".

# Dünya azərbaycanlılarının siyasi və ideoloji birliyi milli həmrəyliyimizin aparıcı amilidir

***Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək, ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Müstəqillik əldə etmiş Azərbaycanda bu ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü bütün azərbaycanlılar bu gün fəxr və qürurla qeyd edirlər.***



1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Əlbəttə ki, dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində mühüm addımlar atıldı. Dünya azərbaycanlılarının siyasi və ideoloji birliyi əsas məsələ olaraq qarşıya qoyulduğundan Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır".

Qurultayın tarixi əhəmiyyətinə nəzər salarkən, onu da qeyd etməliyik ki, Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması ideyası da bu qurultaydan qaynaqlanıb. Heydər Əliyev çıxışında belə demişdir:"...biz dövlətimizin tərkibində Azərbaycan diasporu ilə iş üçün xüsusi bir orqanın yaradılması haqqında da qərar qəbul edəcəyik. Güman edirəm ki, belə mərkəzləşmiş bir orqan, yəni Azərbaycan icmaları ilə daim əlaqə saxlayan orqan həm icmaların və ümumiyyətlə, Azərbaycan diasporunun formalaşmasına, həm də bizim əlaqələrimizin daha da inkişafına xidmət edəcəkdir". Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd oldu. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan verdi. Bu tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, bu gün 450-dən çox diaspora təşkilatı dünya ölkələrində Azərbaycanın maraqlarına xidmət edir. Xarici ölkələrdə 92 diplomatik nümayəndəliyin, 60 səfirliyin olması Azərbaycan həqiqətləri ilə bağlı dünya ictimaiyyətini məlumatlandırmasında, Vətənin səsinin dünyanın istənilən qitəsində eşidilməsində rolu danılmazdır.

Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradıldı. Azərbaycan diasporu təşkilatlanaraq ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi-iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşıblar. Azərbaycanlılar yaşadıqları, fəaliyyət göstərdikləri ölkələrdə, öz qüvvələrini səfərbər etməklə, dünyanın sivil nöqtələrində Azərbaycan naminə səslərini ucaldırlar. Onların sayı Birləşmiş Ştatlarda 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə 27 minə çatır. Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti İrandan miqrasiya etmiş soydaşlarımızdır. Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə Avropadır. Digər Qərb ölkələrində məskunlaşmış azərbaycanlıların sayı, müvafiq olaraq, hər bir ölkədə 2-10 min nəfər arasındadır. Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsində məskunlaşmışlar. Sözsüz ki, bu qədər sayda həmvətimizin xarici ölkələrdə məskunlaşması Azərbaycan həqiqətləri ilə bağlı reallıqların geniş bir şəkildə diqqətə çatdırılmasında rola malikdir.

Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi diaspor siyasəti uğurlarla nəticələnir. Belə ki, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Dünyanın müxtəlif ölkələrində keçirilmiş tədbirlərin sayına görə, Azərbaycan Avropa ölkələrinin önündədir. Avropa ölkələrində Azərbaycanın qədim tarixi və zəngin mədəni irsi, ölkəmizin müasir inkişaf səviyyəsi və mövcud turizm potensialı, həmçinin, əldə etdiyi nailiyyətlər, qarşılaşdığı müxtəlif problemlər, o cümlədən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında Avropa ictimaiyyətinin məlumatlandırılması işinə xüsusi diqqət yetirilir. Azərbaycan diaspor təşkilatları Avropanın müxtəlif ölkələrində erməni diasporu və lobbisinin təşkil etdiyi anti-təbliğat kampaniyalarının qarşısının alınması və ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşdırılması üçün müxtəlif formatlı tədbirlər və layihələr həyata keçirir. Dünya Azərbaycanlılarının 4-cü Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana, doğma Vətənə gəldilər. Bu, birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqtə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin". Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olundu. Prezident İlham Əliyev Azərbaycan həqiqətləri haqqında dünya ictimaiyyətinə geniş informasiya verilməsinin vacibliyini diqqətə çəkərək, hazırda bizim 92 diplomatik nümayəndəliyimizin, 60 səfirliyimizin olduğunu bildirib. "Ümumiyyətlə, Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır. Bizim heç bir ölkə ilə, - Ermənistandan başqa, - heç bir problemimiz yoxdur" - deyən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırıldığını vurğulayıb. Azərbaycan Prezidenti xarici ölkələrin dövlət, hökumət, qanunvericilik orqanlarında təmsilçiliyimizə də nəzər salıb: "... xarici media qurumları ilə bizim işimiz o qədər də yaxşı qurulmayıb. Burada da əsas rolu, əlbəttə ki, diaspor təşkilatları oynamalıdır. Çünki Azərbaycan dövləti bu işlərə müdaxilə edə bilməz. Biz heç bir xarici ölkənin daxili işinə qarışmırıq. Bu, qəbuledilməzdir. Ancaq hesab edirəm ki, Azərbaycan diaspor təşkilatları bu istiqamətdə öz işini lazımi səviyyədə qura bilməyiblər. Bizim xarici mediaya çıxışımız çox məhduddur".

Prezident İlham Əliyev müstəqilliyimizin ilk illərində, zəif olmağımızdan istifadə edən erməni diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirib: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Bu gün dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış ola bilirlər".

Bu gün ölkəmizdə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib və doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir.

**ZÜMRÜD**


136 Məlumat Mərkəzi
AtaBank
Hədiyyəli
yeni il
AtaBank
SYNERGY GROUP
Kampaniya 29.12.2017 - ci il tarixinədək qüvvədədir


AtaHolding Şirkətlər Qrupu
Azərbaycan xalqını 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, Azərbaycan Respublikasının tərəqqisi naminə daha böyük uğurlar arzulayır.
Qoy bu Yeni il Azərbaycan xalqına sülh, əmin-amanlıq, xeyir-bərəkət və xoşbəxtlik gətirsin.
Yeni iliniz mübarək olsun!

# Azərbaycanın dinamik inkişafı ölkəmizi siyasi və iqtisadi cəhətdən qlobal mərkəzə çevirməkdədir



*YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, MM-in komitə sədrinin müavini Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*

**- Sevinc xanım, 2017-ci il artıq başa çatmaq üzrədir. Bu il ərzində Azərbaycan dövlətinin xarici siyasətinin nəticələrini necə xarakterizə edərdiniz?**

- Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilmişdir. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir.

Azərbaycanın dinamik inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal mərkəzə çevirməkdədir. İlk növbədə siyasi sahədə qazanılan nailiyyətlər Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini respublikamıza yönəldə bilib. Bunun ən böyük təsdiqi 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi olub. Bu, onun göstəricisidir ki, Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir dövlətdir. Ölkəmiz beynəlxalq birliyin müstəqil üzvü kimi öz mənafelərini qarşılıqlı hörmət prinsipi çərçivəsində həyata keçirir. Bu isə Azərbaycanın müstəqil inkişafını təmin etməklə yanaşı, öz gücünə inamını, eləcə də ölkəmizə olan etimadı artırır. Onu da əlavə edək ki, Azərbaycan təkcə siyasi, iqtisadi məsələlərdə deyil, humanitar, mədəni sahələrdə də yeni qlobal mərkəz rolunu oynayır.

Ümumiyyətlə, 2017-ci ilin xarici siyasət sahəsindəki yekunları göstərir ki, həyata keçirilən balanslaşdırılmış siyasət Azərbaycanın müstəqil xarici siyasət kursunun əsasını təşkil etməklə yanaşı, ölkəmizin beynəlxalq münasibətlərdə uğurla təmsil olunmasını təmin edir. Azərbaycan öz xarici siyasətini, ikitərəfli və çoxtərəfli əlaqələrini sırf beynəlxalq hüquq normaları, milli maraqları əsasında davam etdirir. Bunun nəticəsidir ki, 2017-cı ildə Azərbaycanın beynəlxalq əlaqələri daha da genişlənib, ölkəmizin tərəfdaşlarının sayı artıb. Qazanılan bütün nailiyyətlərin əsasında isə Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir.

**- Azərbaycan qlobal təhlükəsizliyə əhəmiyyətli töhfələr verməkdədir. Bu baxımdan, ölkəmizin reallaşdırdığı enerji layihələrinin önəmini necə dəyərləndirirsiniz?**

- Azərbaycanın beynəlxalq aləmdə nüfuzlu və etibarlı dövlətə çevrilməsinin səbəblərindən biri də ölkəmizin qlobal təhlükəsizliyə əhəmiyyətli töhfələr verməsidir. Qlobal təhlükəsizlikdən bəhs edərkən əvvəla onu bildirmək lazımdır ki, yerləşdiyi regionun təhlükəsizlik qarantı olan Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayır. "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması Azərbaycanla əməkdaşlığın Avropa üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərdi. Bildiyimiz kimi, "Şahdəniz-2" layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək, Avropaya yeni qaz dəhlizi açacaq. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş və məqsədyönlü xarici siyasət ölkəmizi regionda lider dövlətə, qlobal miqyasda isə etibarlı tərəfdaşa çevirib.

**- Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərinin hazırki səviyyəsi haqqında nə deyə bilərsiniz?**

- Dünyanın müxtəlif qitələrində yerləşən dövlətlərlə, aparıcı beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsi, respublikamızda həyata keçirilən mütərəqqi islahatlar barədə dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılması, enerji resurslarının ixracı və diversifikasiyası prosesinin gerçəkləşdirilməsi dövlət başçısı İlham Əliyevin siyasətində diqqəti xüsusi çəkən prioritetlərdir. Məhz bu diplomatik reallıqlar fonunda respublikamızın Avropa üçün geosiyasi və iqtisadi əhəmiyyəti daha da yüksəlib, avrostrukturlara inteqrasiya prosesi sürətlənib. Ötən illər ərzində Azərbaycan Avropa Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO Parlament Assambleyası və digər mötəbər beynəlxalq təşkilatlarla qarşılıqlı maraqlar əsasında faydalı əməkdaşlıq edir. Son illər həyata keçirilən islahatların məntiqi nəticəsi olaraq Azərbaycan iqtisadi sahədə keçid dövrünü uğurla başa vuraraq iqtisadi və sosial-mədəni modernləşmənin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Beynəlxalq təşkilatlar tərəfindən də ciddi maraqla qarşılanan Azərbaycanın inkişaf modeli əlverişli coğrafi və geosiyasi məkanda yerləşən respublikamızın nüfuzunu daha da gücləndirib. Bu amilin nəticəsidir ki, Azərbaycanla əməkdaşlıq etmək istəyində olan dövlətlərin və təşkilatların sayı durmadan artır.

Hazırda Azərbaycan dövlətinin qarşısında dayanan yeganə problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizi hələ də işğal altındadır. Dövlətimiz münaqişənin ədalətli həlli istiqamətində bütün diplomatik imkanlardan maksimum istifadə edir. Təəssüf ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi, müvafiq beynəlxalq qurumların və dövlətlərin laqeyd və ikili standartlarla yanaşması səbəbindən münaqişə hələ də özünün ədalətli həllinin tapmır. Prezident İlham Əliyev hər zaman yüksək beynəlxalq tribunalardan Ermənistanın işğalçılıq siyasətini ifşa edir və bəyan edir ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına hec vaxt imkan verilməyəcək. Ərazi bütövlüyümüzün danışıqlar prosesində müzakirə mövzusu olmadığını deyən dövlətimizin başçısı sülh danışıqları nəticə verməsə, Azərbaycanın öz gücünə torpaqlarımızı işğaldan azad edəcəyini dəfələrlə vurğulayıb.

**- Azərbaycan dünya miqyasında dinamik inkişaf tempinə malik olan ölkələr sırasında aparıcı yerlərdən birini tutur. Sizcə, faktın əsasında dayan amillər nədən ibarətdir?**

- Əlbəttə ki, bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Sosial-siyasi islahatların davamlı olaraq həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin təmin olunması və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir.

Müasir dövrdə qloballaşma şəraitində ayrı-ayrı ölkələrin və beynəlxalq münasibətlər sisteminin durumunu xarakterizə edərkən ən çox maliyyə-iqtisadi və siyasi böhran hallarına rast gəlinir. Xüsusilə də ayrı-ayrı regionlarda konfliktlərin, müharibələrin mövcud olması, inkişaf etmiş iqtisadiyyata və siyasi sistemə malik olan ölkələrdə isə sabitliyin öz yerini xaosa verməsi qlobal kataklizmlərin mövcudluğundan xəbər verir.

Bu gün Azərbaycan ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasındadır. Ölkəmizdə bütün sahələrin inkişafına təkan verən mühüm amillərdən biri olmaq etibarilə ictimai-siyasi sabitlik həm də milli təhlükəsizliyimizin qarantı qismində çıxış edir. Birmənalı şəkildə qeyd etmək olar ki, Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şərait yaradılması kimi göstəricilər və nəticələr deyilənləri təsdiq edir.

Hazırda dünyanın bir sıra nöqtələrində, xüsusilə, Yaxın Şərqdə baş verən proseslər sabitliyin nə qədər böyük dəyər olduğunu təsdiqləyir. Müəyyən beynəlxalq güclər öz maraqları naminə bir sıra dövlətlərin daxilində vəziyyəti gərginləşdirdilər və hazırda çox acınacaqlı durum yaranıb. Həmin ölkələrin xalqları, günahsız insanlar çox ağır məhrumiyyətlərlə üz-üzə qalıblar. Bütün bunlar bir daha bu reallığı təsdiqləyir ki, hər bir cəmiyyətin qarşısında duran ən mühüm əsas vəzifələrdən biri məhz ictimai-siyasi sabitliyin təmin edilməsidir. Çünki, ictimai-siyasi sabitlik inkişafın əsasını təşkil edir. Bu baxımdan da, bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik adası kimi səciyyələndirilə bilər. Azərbaycanda demokratiya və onun başlıca atributları olan vətəndaş cəmiyyəti və hüquqi dövlətin mütləq komponentlərinin təşəkkül tapması və inkişafını təmin edən əsas amillərdən biri məhz davamlı islahatların həyata keçirilməsidir. Digər tərəfdən, çoxistiqamətli islahatlar siyasi sistemin təkmilləşməsinə mühüm töhfələr verir. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasının fonunda reallaşdırılan demokratik islahatlar mütəmadi xarakter daşıyır. Azərbaycan siyasi, hüquqi, iqtisadi islahatları davam etdirmək əzmindədir və həyata keçirilən bütün tədbirlər ölkəmizin davamlı inkişafına xidmət edir. Xüsusilə də müxtəlif sahələrdə islahatların paralel aparılması reallaşdırılan siyasi kursun səmərəliliyini təmin edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi Azərbaycanda bütün azadlıqlar təmin edilib. Ona görə də, bu gün Azərbaycn sivil, demokratik dövlət kimi beynəlxalq müstəvidə qəbul olunur. Bu amil ölkəmizin nüfuzunun artmasını şərtləndirən səbəblərdən biridir.

**- Sevinc xanım, Azərbaycan dünyada yüksək tolerantlıq ənənələri olan ölkə kimi də dünyada tanınır. Sizcə, bu faktor beynəlxalq miqyasda ölkəmizə nə kimi dividentlər gətirməkdədir?**

- Bu gün müasir ölkəmiz azərbaycançılıq ideyalarına əsaslanan, multukultral, tolerantlıq və həmrəylik nümunəsi kimi çıxış edir. 1993-cü ildə Azərbaycan dövlətini parçalanmaqdan qurtarmış Ümummilli liderin uğurlarının kökündə məhz azərbaycançılıq ideologiyası dayanırdı. Həmin dövrdə respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası ayrı-ayrı bölgələrdə özünü daha qabarıq göstərirdi. Belə bir zamanda xalq dinindən, etiqadından və etnik bölgüsündən asılı olmayaraq Ulu öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası ətrafında birləşdi və ölkəni parçalamaq istəyən qüvvələr zərərsizləşdirildi.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olaraq Prezident İlham Əliyevin uğurlu daxili siyasəti nəticəsində azərbaycançılıq ideologiyası ölkədə yaşayan bütün etnik qrupların vahid ideyasına çevrilmişdir. Məhz 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi, yuxarıda qeyd olunanların əməli təsdiqidir. Tolerantlıq Azərbaycanın əvəzsiz, dünya xalqlarına nümunə göstəriləcək milli-mənəvi sərvətidir. Beynəlxalq böhran bir daha onu göstərdi ki, tolerantlıq sadəcə insanların birgə yaşam tərzini müəyyənləşdirən mədəni-psixoloji amil deyil, həmçinin cəmiyyətdə və bütün dünyada regional, hətta qlobal səviyyədə sülhün bərqərar olunması üçün mühüm vasitədir. Qloballaşmadan kənarda qalmayan ölkəmiz bu prosesdə məhz öz inkişaf yolunu, özünəməxsus dəyərlərini əsas götürərək gələcəyə doğru inamla addımlayır. Dünyada gedən proseslər onu göstərir ki, radikallaşma, ekstremizm, terrorizm, münaqişə və miqrasiya bir-birinə bağlı olan anlayışlardır. Multikulturalizmi bir dəyər sisteminə çevirmiş Azərbaycanda çoxmədəniyyətliliyin inkişafı istiqamətində aparılmış məqsədyönlü siyasətin nəticəsində bu gün müxtəlif mədəniyyətlərin təmsilçiləri Azərbaycanın siyasi, iqtisadi və mədəni elitasında təmsil olunur, ölkənin həyatında əsaslı dəyişikliklər və inkişaf prosesində yaxından iştirak edirlər. Azərbaycanın tolerant mühiti ölkədə multikulturalizm və dözümlülük dəyərlərinin fövqündə ölkəmizi bütün dini və siyasi baxışlara sahib, müxtəlif mədəniyyətlərə mənsub xalqların vahid dialoq mərkəzinə çevirir.

# 33 qəzetin layihəsi maliyyələşdirildi

***Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib.***



**1.** Fondun 2018-ci ilin I yarısında KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqəyə təqdim edilmiş layihə təkliflərinin müzakirəsi və təsdiqi;

**2.** Cari məsələlər.

Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki birinci məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. Müzakirəyə çıxarılan məsələ barədə ətraflı məlumat verən V.Səfərli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq 33 qəzetin müsabiqəyə sənəd təqdim etdiklərini diqqətə çatdırıb.

Həmin qəzetlərin layihələrinin 2017-ci ilin II yarısında Fond tərəfindən maliyyələşdirildiyini deyən icraçı direktor müsabiqədə yeni iştirak edən KİV-lərin olmadığını bildirib. Müvafiq araşdırmalardan sonra sənəd təqdim etmiş 33 qəzetin layihə təkliflərinin müsabiqənin şərtlərinə cavab verdiyi müəyyən edilib.

Sonra qəzetlərdən daxil olmuş sənədlər Müşahidə Şurasının üzvlərinə paylanılıb və məsələ ətrafında müzakirələr başlayıb. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən Cəmaləddin Quliyev, Ramiz Əskər, Bəhruz Quliyev, Əvəz Rüstəmov, Rasim Həsənov, İntiqam Hümbətov və Ayaz Mirzəyev Fondun maliyyə yardımlarının qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd ediblər.

Müzakirələrin sonunda 33 qəzetin sənədlərinin müsabiqənin şərtlərinə cavab verdiyi nəzərə alınaraq, onlara 2018-ci ilin birinci yarısında maliyyə yardımının ayrılması barədə qərar qəbul edilib. Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor V.Səfərli Fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə məlumat verib.



## Milli Parkda atəşfəşanlıq olacaq !

Əziz bakılılar və şəhərimizin hörmətli qonaqları !

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2018-ci il münasibətilə Dənizkənarı Milli Parkda dekabrın 31-də möhtəşəm atəşfəşanlıq təşkil olunacaqdır. Bakı Şəhər İcra Hakimiyyəti Sizi, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir və bu münasibətlə təşkil olunacaq möhtəşəm atəşfəşanlığı seyr etmək üçün 31 dekabr 2017-ci il saat 24.00-da Dənizkənarı Milli Parka dəvət edir.

**Bayramınız mübarək olsun !**
**Bakı Şəhər İcra Hakimiyyəti**





# “700 min ağac əkək”

## *Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatı kampaniya çərçivəsində yaşıllaşdırma aksiyası keçirib*

***Dünən Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə əlaqədar “700 min ağac əkək” kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatı ağacəkmə aksiyası keçirib.***





“700 min ağac əkək” kampaniyası çərçivəsində keçirilən ağacəkmə aksiyasında Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının fəalları, eyni zamanda, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Rayon təşkilatının üzvləri və ictimaiyyət nümayəndələri tərəfindən Taxtakörpü qəsəbəsindəki Heydər Parkında və Gənclər Parkında 600 ədəd ağac və gül kolları əkilmiş, eyni zamanda, əkilən tinglər suvarılmışdır. Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatı ağacəkmə kampaniyası dövründə, tədbirlər planına müvafiq olaraq, mərhələli şəkildə ağac əkməyi planlaşdırır.

Qəsəbə ərazisində “700 min ağac əkək” kampaniyası Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının fəalları, eyni zamanda, rayon ictimaiyyətinin nümayəndələri tərəfindən sevinclə qarşılanmışdır.

**NƏZAKƏT**




# YAP Ağstafa rayon təşkilatı “Uşaqlara sevinc bəxş edək” adlı xeyriyyə tədbiri keçirib



Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatı “Uşaqlara sevinc bəxş edək” adlı xeyriyyə tədbiri keçirib. Rayon təşkilatının inzibati binasında təşkil edilən tədbirdə hər iki valideynini itirən 14 uşaq iştirak edib.

Tədbiri giriş sözü ilə YAP Ağstafa rayon təşkilatının sədr müavini Lalə Eyyubova açaraq, bu uşaqlarla görüşün əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyevin və ölkəmizin Birinci Xanımı Mehriban Əliyevanın uşaq evlərinə, kimsəsiz uşaqlara, əlil uşaqlarına böyük diqqət və qayğı göstərdiyini vurğulayan L.Eyyubova bildirib ki, Ağstafa rayonunda da bu kateqoriyadan olan uşaqlara xüsusi qayğı göstərilir. O, uşaqları qarşıdan gələn Yeni il münasibətilə təbrik edib və onlara bütün arzularına çatmalarını diləyib.

Sonra tədbir çay süfrəsi ərtarında davam edib və uşaqlara bayram sovqatları verilib. Daha sonra rayonun müxtəlif kəndlərində yaşayan əlil uşaqlar üçün Yeni il hədiyyələri aparılıb.

**ZÜMRÜD**

## On bir ayda qeyri-neft sektorunda ümumi daxili məhsul 2.4 faiz artıb

Bu ilin on bir ayında qeyri-neft sektorunda ümumi daxili məhsul (ÜDM) real olaraq 2.4 faiz artıb. Artım qeyri-neft sektorunun ticari sektorunda 4.3 faiz, o cümlədən qeyri-neft sənayesində 4.4 faiz, kənd təsərrüfatında 4.2 faiz təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının 2018-ci il və ortamüddətli dövr üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatında deyilir.

On bir ayda dövlət büdcəsinin xərcləri ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz, o cümlədən əsaslı xərclər 2 dəfə artıb. Bu dövrdə son istehlak xərcləri real olaraq 2.4 faiz artıb.

# Bu il turizm sənayemiz üçün uğurlu il olub

***2017-ci il ölkəmizin turizm sənayesində yaddaqalan il kimi dəyərləndirilir. AZƏRTAC xəbər verir ki, bu il ilk dəfə olaraq paytaxtımızda Bakı Şopinq Festivalı təşkil olunub. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” müvafiq Sərəncamına əsasən keçirilən festivalın təşkilatçısı Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosu idi.***

Şopinq festivalının təşkilinə cəlb edilmiş bütün dövlət qurumları birgə çalışaraq bu işə öz töhfələrini verə bildilər. Qısa müddətdə təşkil olunmasına baxmayaraq, festival uğurlu nəticələrlə yekunlaşdı. Bir ay müddətində Bakının əsas ticarət mərkəzlərinin, mağazalarının qoşulduğu bu festivaldan turistlərlə yanaşı, yerli sakinlər də geniş yararlana bildilər. Festival çərçivəsində alınan mallar üçün ƏDV-nin qaytarılması (“Tax -free”) imkanı ilə yanaşı endirimlər də alıcılar üçün cəlbedici idi.

Bakı Şopinq Festivalının marketinqi, mediada işıqlandırılması və təbliğatı sahəsində də mühüm işlər görüldü. Ümumilikdə 54 ölkədə TV, radio, onlayn media, sosial şəbəkələr və internet televiziyaları vasitəsilə festival haqqında məlumatlar yayılıb. Sosial şəbəkələrdə festival barədə informasiyaları milyonlarla insan izləyib. Şəhərimizi dünyanın qabaqcıl alış-veriş mərkəzlərindən birinə çevirmək məqsədilə oktyabrın 15-dən noyabrın 15-dək ikinci Bakı Şopinq Festivalı keçirildi. İkinci festival müxtəlif yeniliklərlə də yadda qaldı. “Şopomaniya”, “Uğur çarxı” oyunları, “Festival sürprizləri” ani lotereyası və digər həvəsləndirici tədbirlər təşkil edildi.

Statistik rəqəmlər də göstərir ki, festivallar ölkəmizdə ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərib. Əgər birinci Bakı Şopinq Festivalında 172 şirkət əlavə dəyər vergisinin (ƏDV) qaytarılmasına qoşulmuşdusa, ikinci festivalda onların sayı 493 oldu. İlk festivalda tərəfdaş qismində çıxış edən müəssisələrin sayı 33, ikinci festivalda 150 idi. Bu da sahibkarlar tərəfindən festivala olan marağın getdikcə artdığını bir daha təsdiq edir. Birinci festivalın ümumi dövriyyəsi 18 milyon manatdan, ikinci festivalın ümumi dövriyyəsi 33 milyon manatdan çox oldu.

Festival yerli sahibkarlığın inkişafı, ticarət və turizmə əlavə sərmayələrin cəlb edilməsi baxımından effektiv olmaqla yanaşı, Azərbaycan vətəndaşlarının da xarici turistlərə şamil olunan ƏDV qaytarılması sistemindən yararlanmasına şərait yaratdı. Bundan sonra hər il Bakı Şopinq Festivalının ildə iki dəfə - yaz və payız aylarında təşkili nəzərdə tutulur. Şopinq festivalı təkcə sərfəli ticarət deyil, həmçinin ölkənin mədəni irsinin, incəsənətinin alış-veriş həvəskarlarına, yerli və xarici turistlərə tanıtımı üçün əlavə imkanlar yaratdı. Bu baxımdan hər iki festival müxtəlif mədəni-əyləncəli layihələr, o cümlədən Milli Turizm Təbliğatı Bürosunun iştirakı ilə gerçəkləşən tədbirlərlə yadda qaldı. Bakı dünyanın ən möhtəşəm şopinq festivallarının keçirildiyi şəhərlərin siyahısına daxil ola bildi.

## “ASAN Viza” ilə çoxdəfəlik vizalar veriləcək

Milli Məclisin dünən keçirilən plenar iclasında “ASAN Viza” sistemi vasitəsilə çoxdəfəlik elektron vizaların verilməsi təklifinə baxılıb. SİA-nın xəbərinə görə, bununla bağlı Miqrasiya Məcəlləsinə dəyişiklik olunur. Məcəllənin qüvvədə olan 38-ci (Elektron vizalar) maddəsinin 1-ci bəndinə əsasən, Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər “ASAN Viza” sistemi vasitəsilə elektron viza ala bilərlər. Elektron qaydada verilən birdəfəlik vizada ölkədə qalma müddəti 30 günədək müəyyən edilir. Bəndə edilən yeni əlavəyə əsasən, çoxdəfəlik vizada müddət 90 gün müəyyən edilir.



Layihədə bildirilib ki, Miqrasiya Məcəlləsinin 38-ci mçaddəsi ölkəyə gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə “ASAN Viza” sistemi vasitəsilə elektron viza alma imkanı verir. Məcəllənin hazırki tələbinə görə elektron qaydada viza birdəfəlik verilir və ölkədə qalma müddəti 30 günədək müəyyən edilir. Mövcud məcəlləyə görə viza əsasında Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz. Hazırki layihə ilə “ASAN Viza” sistemi vasitəsilə çoxdəfəlik elektron vizaların verilməsi təklif olunur. Dəyişiklik layihəsi səsverməyə çıxarılaraq qəbul edilib.

## 2018-ci ildə “Azəri-Çıraq-Günəşli”dən 204,4 milyon barrel neft hasil olunacağı proqnozlaşdırılır

2018-ci ildə Xəzərin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” (AÇG) neft-qaz yataqları blokundan xam neft hasilatının həcminin 204,4 milyon barrel, yəni 28 milyon ton olacağı proqnozlaşdırılır. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Hesablama Palatasının hazırladığı “Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsi ilə bağlı Rəy”də deyilir. Bildirilir ki, bu, hasilatın aşağı düşməsi səbəbindən 2017-ci ilin göstəricisinə nisbətən (211,7 milyon barrel) 7,3 milyon barrel azdır.



***Bir sıra media orqanları son zamanlar antiazərbaycan kampaniyası aparanların dəyirmanına su tökməyi xatırladan informasiyalar yayırlar. Onlar milli maraqları deyil, kənar qüvvələrin mənafelərini müdafiə edirlər. Konkret olaraq Avropa İttifaqı və Avropa Şurası ilə əlaqəli məsələlərdə yanlış mövqedə durur və bilmədikləri məqamları bildikləri kimi qələmə verməyə cəhd edirlər. Bunun fonunda Azərbaycan rəhbərliyinə, yüksək vəzifə tutan insanlara qarşı haqsız fikirlər yazır, onları olmayan günahlarda ittiham etməyə çalışırlar. Ancaq kiçik araşdırma belə göstərir ki, həmin dairələr böyük yanlışlıq içindədirlər. Tarixi faktları araşdırıb həqiqəti öyrənmək əvəzinə xaricdən verilən paylara görə öz dövlətinin nümayəndələrinə böhtan atırlar. Yalançı demokratların sifarişi ilə hərəkət edən bu qruplar ölkənin imicinə, onun rəhbərliyinə qarşı fəaliyyət göstərirlər. Bu bağlılıqda Azərbaycan Prezidentinin köməkçisi Novruz Məmmədovun Avropa qurumları ilə bağlı ifadə etdiyi haqlı fikirlərin düzgün dərk edilməməsi pis haldır. Aparılan araşdırma kimin haqlı olduğunu gün kimi ortaya qoyur.***



# "Klub" azarkeşlərinin "beşinci kolon"u, yaxud riyakar demokratların ruporları

### "Avropa ideyası" və "Birləşmiş Avropa": real tarixi kökləri

Şübhə yoxdur ki, Azərbaycana qarşı informasiya müharibəsini davam etdirən dairələr ortaya yeni-yeni maneələr atmaqdadırlar. Onlar müxtəlif üsullardan istifadə edərək ölkə və onun rəhbərliyi haqqında yanlış təsəvvürlər formalaşdırmağa cəhd edirlər. Təəssüf ki, həmin dairələrə Azərbaycanda quyruq bulayanlar da vardır. Onlar bütün dəyərləri bir kənara qoyaraq, ağalarına necə qulluq göstərmək üçün dəridən-qabıqdan çıxırlar. Bu zaman ən adi həqiqətləri belə inkar edir, opponentlərinə böhtan atmaqdan çəkinmirlər. Əslində, bu, gözləniləndir, çünki yalnız yalanla, iftira ilə, ədalətsizlik etməklə Azərbaycanın haqq işinə qarşı çıxış etmək olar. Azacıq vicdanı və Vətən sevgisi olan bir an dayanıb, düşünər və öz dövlətinin əleyhinə olan işlərə qarışmaz.

Məsələ onunla bağlıdır ki, Azərbaycan Prezidentinin köməkçisi Novruz Məmmədov Avropa İttifaqı və Avropa Şurası ilə bağlı obyektiv fikir ifadə etmişdi. Daha aydın olması üçün Novruz Məmmədovun söylədiklərini olduğu kimi veririk: "Nahaq yerə Avropa İttifaqını - "xristian klubu" adlandırmırlar ki! Niyə Avropa Şurası da "xristian klubu" olmasın. İslamofobiyanın bu səviyyəyə çatdığı bir zamanda ona kim mane ola bilər. Elə bu yolla da istədiyi "əsas məqsədinə" çata bilər. Belə olmasaydı, ötən illər ərzində, Avropa Şurasına üzv ola-ola Azərbaycanın ərazilərini işğal altında saxlayan Ermənistanla əlaqədar, heç olmasa, bircə dəfə bir yerdə bir söz deyər, mövqe bildirərdi" (bax: Novruz Məmmədov: "İlqar Məmmədov cəza müddətinin 2/3 hissəsini çəkdiyinə görə şərti azadlığa buraxılma hüququna malik ola bilər" / APA, 7 dekabr 2017).

Sözlərinə davam edərək, Novruz Məmmədov deyib: "Bu gün radikalizm, terrorizm, separatizm, miqrasiya, kütləvi qırğın silahlarından istifadə nə üçün belə geniş vüsət alıb? Bütün bunların səbəbləri nədir? Dünya birliyi hara istiqamət götürüb? Sabit, təhlükəsiz və davamlı inkişafı təmin edən gələcəyə tam təminat və əminlik varmı? Əminəm ki, dünyanın hər yerində, elə Avropada da mənim fikirlərimi bölüşənlər çoxdur" (bax: əvvəlki mənbəyə).

Açığı, Novruz Məmmədov bir sıra Qərb siyasətçisi, eksperti və analitikinin zaman-zaman ifadə etdiyi tezisləri xatırladıb. Bu məqamda Azərbaycan dövlət xadimi kifayət qədər təvazökar, obyektiv və ədalətli mövqe tutub. Yəni Azərbaycana qarşı Avropa Şurasının qərəzli qərar almasına baxmayaraq, heç bir kəskin fikir ifadə etməyib, eləcə də Avropa İttifaqı haqqında deyilənləri təmkin və məntiqlə xatırladıb. Bunu sübut edən faktlar kifayət qədərdir. Onların bəzilərinə nəzər salaq.

Rusiyalı alim Andrey Baykov yazır ki, tarixi olaraq avropalıların ilk inteqrasiya ideyası "avropaçılıq" olub. Ona "Avropa ideyası" da deyirlər. Bu ideyada Avropa xalqlarının digərləri üzərində mədəni-sivilizasiya üstünlüyü öz əksini tapıb (bax: Baykov A.A. İdeoloqiçeskiy komponent v gvolöüii Evrosoöza. - Polis. Politiçeskie issledovaniə. 2013. № 1. S. 130). Avropaçılıq "Roma dünyası"nın vahid olması, eyni dini məkanda mövcudluğu, ümumi hüquqi və dil məkanında təşəkkül etməsi kimi təsəvvürlərdən qaynaqlanırdı (bax: əvvəlki mənbəyə, s. 130). Orta əsrlərdə "Avropa dünyası" Müqəddəs Roma imperiyası çərçivəsində siyasi konsolidasiya olundu ki, bu da birbaşa dini faktorun başlıca yer tutmasının təsdiqi idi. Dante Aligyeri, Erazm Rotterdamski, Uilyam Penn və başqaları buna "Roma dünyası" kimi baxırdılar. İdeoloji olaraq isə bu hadisə dini sanksiya idi və ona rəhbərliyi Vatikan edirdi (bax: əvvəlki mənbəyə, s. 130).

### Demokratiyadan uzaq: "xristian klubu"nun avropaçılıq kursu

Sonra. İkinci Dünya müharibəsindən sonra avropaçılıq Qərbi Avropa xalqlarının mədəni müstəsnalığı təməlində Qərbi Avropa dövlətlərinin ideologiyası və siyasətində dərin kök salmağa başladı (bax: əvvəlki mənbəyə, s. 131). Y.A. Borko, A.V. Zaqorski və S.A. Karaqanov isə sanki bu fikirləri daha da konkretləşdirərək vurğulayırlar: "Xristian, faktiki olaraq isə katolik Avropası "yad inanclılara" qarşı birləşməlidir (seçmə bizimdir - red.) kimi çox adi fikir Avropa sivilizasiyasının unikallığı və bütövlüyünün ideoloji əsaslandırılması məzmunu kəsb etdi. Bunun qorunub saxlanması və inkişaf etdirilməsi isə ümumi dəyərləri paylaşan xalqların birliyini tələb edirdi..." (bax: Borko Ö.A., Zaqorskiy A.V., Karaqanov S.A. Obhiy evropeyskiy dom: çto mı o nem dumaem? M., 1991. S. 42).

Qulaqları həqiqətə qapalı olan bir sıra dairələrə bir daha xatırlatmaq istərdik ki, bu fikirləri alimlər ifadə edirlər. Onlar ciddi elmi əsaslarla problemin mahiyyətini öyrənirlər. Ancaq biz konkret avropalı siyasi liderlərin də fikirlərinə müraciət edə bilərik. Məsələn, Fransanın keçmiş prezidentlərindən olan Valeri Jiskar d'Esten demişdi ki, Türkiyənin Aİ-yə daxil olması "Avropanın sonu" olar, çünki Türkiyə Avropa ölkəsi deyil (bax: D'Gsten: Turüiə v ES? Gto katastrofa / BBC, 8 noyabr 2002). Bu sözləri şərh edən Bi-Bi-Si müxbiri Kris Morris deyib: "...Aİ-nin görkəmli funksionerinin sözləri Ankaraya belə deməyə yeni əsas verir ki, Avropa İttifaqı "xristian klubu" keyfiyyətində özünü saxlamağa cəhd edir" (bax: əvvəlki mənbəyə).

Tədqiqatçıların Avropa İttifaqının yaranmasının real səbəbləri barədə yazdıqlarının analizi göstərir ki, həmin prosesin demokratiya, əməkdaşlıq və mədəniyyətlə heç bir əlaqəsi olmayıb. Tyerri Meysan "Avropa İttifaqının gizli tarixi" yazısında vurğulayır: "...beləliklə, böyük dövlətlərin ehtiyatlarının kollektiv nəzarət altına alınması ilə onlar arasında münaqişədən qaçmaq imkanı meydana gəlir" (bax: Tğerri Meysan. Taynaə istoriə Evropeyskoqo soöza / "Voltairenet.org", 28 iyun 2004). Burada söhbət ABŞ, Böyük Britaniya, Fransa və Almaniya gizli servislərinin Avropanı birləşdirmək üçün qurduğu planlardan gedir. T.Meysan göstərir ki, əsas məqsəd kommunizm fəlakətindən qorunmaq idi. Bunun üçün Avropanın böyük dövlətləri arasında müharibə olmamalı idi. Ona nail olmağın yolu isə həmin dövlətləri vahid təşkilatda birləşdirməkdən ibarətdir.

Bu cür yanaşma iki məqamı özündə ehtiva edir. Birincisi, söhbət yalnız Avropanın xristian dövlətlərindən gedir. İkincisi, demokratiya, sülh, mədəni əməkdaşlıq aparıcı rol oynamır. Başlıca olaraq Avropanı qorumaq üçün özünün birləşmiş təşkilatını yaratmaq nəzərdə tutulur.

Deməli, kimlərsə, Aİ-nin "xristian klubu" olmadığını deyirsə və üstəlik, demokratiya nümunəsi kimi bu təşkilatı göstərirsə, böyük yanlışlıq içindədir. Əlavə olaraq bu yalana uyub öz ölkəsinin rəhbər orqanlarına qarşı qarayaxma kampaniyası aparırsa, dolayısı ilə xəyanət içindədir. İndi özünüz deyin, kimlər "ətirli" fikirlər ifadə edirlər? Avropa İttifaqı və Avropa Şurası barədə tarixi həqiqəti deyən dövlət xadimimi, yoxsa kənardan sifarişlərin mahiyyətinə varmadan yalan informasiyaları cəmiyyətə sırımağa çalışan üzdəniraq "demokratiya və azadlıq aşiqləri" bir sıra KİV nümayəndələrimi? Bizcə, cavab tam aydındır. İkincilər böyük qəflət, yalan və uğursuz bir yoldadırlar. Onlar hələ anlamaq istəmirlər ki, yad düşərgədən gələn sifarişlər, əslində, ayaqlarının altını qazıb dərin quyuya salmaq üçündür.

Avropalı bəzi qərəzli dairələr həm riyakar demokratiya siyasəti yeridir, həm də bunun üçün ikili standartlardan istifadə edirlər. Onlar müxtəlif qondarma, gəlişigözəl ifadələr işlədib, maliyyə xərcləyərək müxtəlif regionlarda dayaz düşünən insanları ələ alır, özlərinin ruporuna çevirirlər. Təcrübə göstərir ki, belə adamlar, ən adi həqiqətləri belə görə bilmirlər. Onları birləşdirən klubun adı da bəllidir - "beşinci kolon"! Yəni təbliğat arabasının "beşinci, mutant təkəri"! Bu statusu olanların cəmiyyətə hansı faydası ola bilər? Heç bir faydası olmaz, ancaq insanların şüurunu zəhərləməklə onları düz yoldan sapdıra bilərlər. Azərbaycan hakimiyyəti belə fəndləri çox yaxşı bilir və əks tədbirləri lazımi səviyyədə görür. Yazıq yoldan sapanlardır. Çünki hər bir halda onlar Azərbaycan vətəndaşlarıdırlar.

**Newtimes.az**

# Müxalifət üçün 2017-ci il də əvvəlki illər kimi uğursuz oldu

*İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, müxalif qüvvələrin fəaliyyəti ölkənin inkişafına, tərəqqisinə və mövcud problemlərin həllinə xidmət edir. Bunu rəqabət kimi də qeyd etmək olar. Müxalif qüvvələr hakimiyyət uğrunda mübarizədə xalqa öz xidmətini həm nümayiş etdirir, həm də öz platforması, gələcək planları ilə bir növ nəzərdə tutduğu strategiyasını və xidmətlərini təklif edir. Bir çox ölkələrdə müxalifətin fəaliyyəti heç də tənqid, təhqir və aqressiv yanaşma ilə müşayiət olunmur. Əksinə, hakimiyyət qüvvələri ilə daim təmasda olan müxalifət, mütəmadi olaraq, alternativ təkliflər və tədbirlərlə xalqın diqqətini cəlb edir. Müxalifətdə təmsil olunanlar, xalqın rifahı, sosial durumunun yaxşılaşdırılması, siyasi, iqtisadi, mədəni, hərbi və sair sahələrdə nailiyyətlərin əldə edilməsi istiqamətində yeni təklif və tədbirlərlə çıxış edir.*



### Azərbaycan ictimaiyyəti müxalifətə dəstək deyil

Əfsuslar olsun ki, Azərbaycan müxalifətinin elə bil dünya təcrübəsindən ya xəbəri yoxdur, ya da bu təcrübə onlar üçün əlçatmazdır. Hər iki hal müxalifət üçün utancvericidir. Əgər xəbərsizdirlərsə, deməli, bunlar qəflət yuxusundadırlar və burunlarının ucunu da görmürlər. Yox, əgər xəbərləri ola-ola, bu sivil metoddan istifadə etmirlərsə, bu, artıq daha açınacaqlıdır və müxalifətin cılızlığından, bacarıqsızlığından, hətta bəzən xəyanətindən xəbər verir. Hər bir halda, müxalifətin Azərbaycan ictimaiyyətinin dəstəyinə arxalanması gülüncdür.

Uzun illərdir, yalnız küçə mitinqləri, aksiyalardan başqa fəaliyyət sərgiləməyən müxalifət, fəaliyyətini daha da genişləndirmək niyyətinə düşəndə, uzaqbaşı Azərbaycan əleyhinə fəaliyyət göstərən əcnəbilərə xidmət etməyə başlayır. Küçə və meydanlarda barmaqla sayıla biləcək bir neçə idarəolunmaz aksiyaçının xariqələr yaradacağınamı, onların qolundan tutub birbaş hakimiyyət kürsüsünə oturdacağınamı ümid edirlər? Hər dəfə 5-10 nəfər bir yerə yığılanda, onların qarşısında qəhrəman cildinə girməyə çalışan Kərimli, Haçılı, Həsənli, Qəmbər kimilər ötən əsrin 90-cı illərdən bu vaxta qədər uşaq kimi bu ümidlərlə yaşayır. Ola bilsin, Sovet imperiyasının dağılması illərinə təsadüf edən dönəmdə, Azərbaycana qarşı imperiya siyasəti yürüdüldüyü bir zamanda, müstəqillik uğrunda mübarizədə xalqın bir yerə toplanmasından avantüristcəsinə istifadə edənlər, hələ də eyni eyforiyadadırlar. İmperiya ordusu qoşunlarının qarşısına əliyalın çıxan və yalnız suverenlik arzusunda və amalında olanlar, istər say etibarilə, istərsə də əqidə yönündə bu gün idman kompleksinə, küçə və prospektlərə toplaşanlarla eyni sayıla bilməz.

Xalqın sosial durumu, ölkənin siyasi, iqtisadi və hərbi potensialı yüksəkdir, dövlətin dinamik inkişafı danılmazdır. Azərbaycan geopolitik nöqteyi-nəzərdən nüfuzlu dünya dövlətləri arasında, öz uğurlu siyasəti, qlobal yol, infrastruktur və enerji layihələri sayəsində söz sahibidir. Bir sözlə, toplaşmaq, etiraz aksiyası keçirmək üçün sosial sifariş, daha dəqiq desək, səbəb yoxdur. Digər tərəfdən, Azərbaycan ictimaiyyəti, məhz 90-cı illərdə, əhalinin etirazından, xalq hərəkatından istifadə edənlərin, hakimiyyət hərisliyi ilə öz şəxsi mənafeləri üçün yararlananların simalarına artıq bələddir.

### Müxalifət cılız fəaliyyət ənənələrinə 2017-ci ildə də sadiq qaldı

Hadisələrin gedişi, əlalxüsus, idman kompleksinə, küçə və prospektlərə toplaşan aksiyaçıların sayı, onu deməyə əsas verir ki, xalqın müxalifət adı altında maskalanan avantüristlərə zərrə qədər inamı yoxdur və onları dəstəkləmək niyyətində də deyil. Müxalif qurumların taktiki sahədə yanlış addımları onun uzunmüddətli mübarizə üçün düşünülmüş strateji layihələrinin olmamasından xəbər verir və ölkə daxili məsələlərin həlli ilə bağlı alternativ proqramlarının olmaması ictimaiyyətin diqqətindən yayına bilməz.

AXCP-Müsavat kimi dağıdıcı partiyalar uzun illərlə davam edən cılız fəaliyyət ənənələrinə 2017-ci ildə də sadiq qaldı. Yenə də uğursuz aksiyalarla, küçə yürüşləri ilə, bəzən isə, Azərbaycan əleyhinə fəaliyyət göstərən qüvvələrə xidmətilə, daha doğrusu, vətənə, xalqa və dövlətçiliyə xəyanəti ilə ikrah doğurdu. Bu il ərzində nəyə nail oldu, nə qazandı? Heç nə qazanmadı da demək olmaz, çünki anti-Azərbaycan qüvvələrə, hətta işğalçı dövlətə ölkəmiz barədə şər və böhtan xarakterli dezinformasiyalar ötürməklə, öz xəyanəti sayəsində böyük nifrət qazandı. Xəyanətkar adına layiq oldu. Dağıdıcı müxalifətin belə ikrah doğuran "qazanc"nı saymaqla bitməz, amma itirdiklərini saymadan, bir cümlə ilə ifadə etmək olar: Müxalifət ümidini və bir sözlə, hər şeyini itirdi. Çünki dəfələrlə fiaskoya uğramaqla heç bir nəticəyə gümanı belə qalmadı. Nəzərə alsaq ki, ümid sonda yoxa çıxır, bu ümidsizlik müxalifətin sonu deməkdir.

**İnam HACIYEV**

# Xədicə İsmayıl düşərgədaşlarının pullarını necə mənimsəyir?

## Yeni faktlar və təfərrüatlar üzə çıxıb

*Uzun müddətdir ki, "jurnalistlik" fəaliyyətini kənara qoyub, "hüquq müdafiəçi"liyi" ilə məşğul olan Xədicə İsmayıl haqqında yeni və real faktlar ortaya çıxıb. Aparılan araşdırmalardan sonra əldə edilən səhih informasiyalara görə, X.İsmayılın müxalifətyönlü düşərgədə fəaliyyət göstərən bir qrup şəxslərin, eləcə də, təşkilatların xaricdən ötürülən pullarını mənimsəməsi faktı ifşa olunub. Daha dəqiq desək, X.İsmayıl bu gün Azərbaycana qarşı çıxış edən bir neçə Qərbin maraqlı donor təşkilatlarının maliyyə dəstəklərini mənimsəməyə başlayıb. Misal üçün, "siyasi məhbuslar" üçün göndərilən pulların çox az bir qismi həmin istiqamətdə xərclənir, böyük qisminin isə X.İsmayılın cibinə axdığı barədə faktlar öz təsdiqini tapmaqdadır.*

### Xədicə İsmayıl Əfqan Muxtarlını və "NİDA" hərəkatını aldadır

Uzun müddət özünə yaxın hesab etdiyi Əfqan Muxtarlının da pulları X.İsmayılın şəxsi gəlirlərinə çevrilib. Hətta Ə.Muxtarlının bundan xəbəri olsa da, o, susmağa məcbur olub. Çünki ona ünvanlanan gəlirləri X.İsmayıldan tələb edərsə, öz vəziyyətini daha çıxılmaz duruma salacağını anlayır. Belə ki, X.İsmayıl xarici donorlarla əlaqəsi olan yeganə adamdır və əks halda, "hüquq müdafiəçisi", ümumiyyətlə, Ə.Muxtarlının müdafiəsindən imtina edə bilər.

Bu da son deyil. Digər fakt isə, "NİDA" hərəkatının adı ilə bağlıdır. Belə ki, adıçəkilən müxalifətyönlü hərəkatdan mediaya sızan xəbərə görə, X.İsmayıl bu quruma göndərilən gizli qrantların da mənimsənilməsində əsas rol alanlardan biridir. "NİDA"ya yaxınlığı ilə seçilən mənbə, sözügedən iddia ilə bağlı bildirib ki, ilk növbədə, X.İsmayıla ünvanlanmış maliyyə vəsaitləri onun tərəfindən hərəkata ötürülürdüsə, artıq bu vəsaitin ötürülməsi tamamilə dayanıb.

### İlkin Rüstəmzadənin yaxınları: "Xədicə hər kəsi bezdirib"




2013-cü ildə "NİDA"nın "facebook inqilabçısı" kimi tanınan üzvü İlkin Rüstəmzadənin yaxınları bildirirlər ki, X.İsmayıl öz həyasızlığı ilə hər kəsi bezdirib. "O, hər kəsi, hətta beynəlxalq təşkilatları da bezdirib"-deyə qeyd edən İ.Rüstəmzadənin qohumları əlavə ediblər ki, artıq Rüstəmzadə üçün göndərilən pulların bir qəpiyi də ona çatmır. Əksinə, vəsaitlərin hamısı X.İsmayıl tərəfindən mənimsənilir.

Yeri gəlmişkən, bir müddət əvvəl, qərəzli beynəlxalq təşkilatlara Leyla Yunus və Emin Hüseynov haqqında donoslar yazan X.İsmayıl onları "siyasi məhbus" məsələsindəki maliyyələşmələrdən uzaqlaşdırmağa nail olmuşdu. Görünür, onun vəsaitləri yalnız özü tərəfindən qəbul olunub paylanılması prosesi də, həmin planın tərkib hissəsidir. Yəni sonradan onların mənimsənilməsi üçün hərəkətə keçmək X.İsmayılın əsas marağı idi.

Maraqlı məqamlardan biri də budur ki, X.İsmayıl mənimsədiyi pulları müxtəlif adda QHT-lər və mükafatlar adı altında əldə edir. Məsələn, bir müddət öncə, ona "alternativ Nobel mükafatı" verilmişdi. Ancaq bəllidir ki, Nobel mükafatına alternativ olan yeganə mükafat var və onun da adı Şnobel mükafatıdır. Məhz heç bir yerdə tanınmayan QHT-lər və "mükafatlar" adı altında X.İsmayıl son müddətlərdə 300 min (!) dollar kirli gəlir əldə edib.

Daha bir maraqlı nüans isə, bu məsələnin ictimailəşməsinin ardınca AXCP sədri Ə.Kərimlinin və onun ətrafının X.İsmayıla qarşı savaş elan etməsidir. Məsələn, Ə.Kərimlinin saxta profilləri eyni anda sual etməyə başlayıblar ki, nəyə görə xaricdən verilən bütün pullar, bilavasitə, X.İsmayıla çatır? Məhz bu sual ətrafında yaxın günlərdə ciddi ajiotajın, hətta kəskin qarşıdurmaların yaşanması gözlənilir. Bir tərəfdə X.İsmailın "siyasi məhbus" elan etdiyi adamların yaxınlarının, digər tərəfdə isə, Ə.Kərimlinin hücum mövqeyinə keçmələri qondarma hüquq müdafiəçisinin vəziyyətini dalana dirəyəcək.

**Rövşən RƏSULOV**

***XX əsrin ikinci yarısında, xüsusən həmin əsrin sonlarına doğru dünya ölkələrinin sosial-iqtisadi və mədəni həyatında sistemli dəyişiklik baş vermişdir. Bəzi alimlər formalaşmaqda olan yeni cəmiyyət tipini müxtəlif tərzdə, - "Postindustrial cəmiyyət" (D.Bell), "informasiya-kompyüter cəmiyyəti" (Y.Masuda), "Üçüncü dalğa cəmiyyəti" (O.Toffler) və s. adlandırmışlar. Ancaq alimlərin əksəriyyəti bu yeni cəmiyyət tipini "İnformasiya cəmiyyəti" adlandırmaqdadır. Çünki bu cəmiyyətin səciyyəvi xüsusiyyəti onun həyat fəaliyyətində informasiya texnologiyasının həlledici əhəmiyyətə malik olmasındadır. Belə ki, informasiya cəmiyyətində iqtisadiyyat, torpaq sahəsi və maliyyə kapitalı ilə yanaşı, dördüncü sərvət sektoru - bilik və informasiya hesab olunur.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Milli mədəniyyət və informasiya cəmiyyəti

Bununla əlaqədar olaraq, informasiya texnologiyası və zehni qabiliyyətlərdən istifadə olunması son dərəcə aktuallaşır, fərdlərin bir-birindən fərqlənməsinin əsas amilləri təhsil, peşəkarlıq (professionalizm) və onun səviyyəsi, səriştəsi olur. Biliyin və informasiyanın olmaması fərdləri müəyyən qərarların qəbul edilməsi və təşkilat işlərindən məhrum edir.

Adil Axundov yazır: "Daim təkmilləşən informasiya texnologiyası maddi istehsal iqtisadiyyatında əsas məhsuldar qüvvəyə çevrilir. Bunun nəticəsində, əməyin xarakterində, mülkiyyət münasibətlərində, ictimai həyatın sosial strukturunda baş verən dəyişikliklər əsasında yeni və informasiya üsullu istehsalat formalaşır.

Beləliklə, informasiya cəmiyyəti formalaşdıqca, sanaye fəhlələrinin ümumi sayı durmadan aşağı düşür. Əvəzində isə, xidmət sahəsində işləyənlərin sayı ardıcıl olaraq artır. Sənaye fəhlələri isə, maddi istehsalatın əsas qüvvəsi olmaqla, - marksizmin rəyincə, - həm də cəmiyyətdəki inqilabi sosial-siyasi dəyişikliklərin aparıcı qüvvəsidir".

Maddi istehsal texnologiyalarının tətbiqi prosesinə yeni resurslar - bilik və informasiya daxil olur. Həmin resurslar maddi istehsal prosesinə bu vaxta qədər görünməmiş yüksək mobillik və yeniləşmə gətirir. Yeni texnologiyaların tətbiqi nəticəsində əməyin xarakteri dəyişir, o, intellektual və yaradıcı keyfiyyətlər əldə edir.

İnformasiya cəmiyyəti dövründə siyasi münasibətlərin xarakterində də xeyli dəyişikliklər baş verir. Belə ki, siyasi əlaqələr və siyasi informasiya məkanı anlayışları yeni tərzdə anlaşılır. Dövlət idarəçiliyi sistemində də mühüm dəyişikliklər baş verir, bir sıra ölkələrdə "elektron demokratiyası" tətbiq edilməyə başlayır. "Elektron demokratiyası" anlayışı müxtəlif siyasi proseslərdə, xüsusən, hakimiyyətlə cəmiyyət arasındakı qarşılıqlı demokratik əlaqələrdə kompyüter texnologiyasından istifadə olunmasını nəzərdə tutur.

A.Axundovun fikrincə, internetin meydana çıxması və ondan istifadə olunması başlanğıcda sosial həyat qaydalarının yaxşılaşdırılması istiqamətində xeyli ümidlər doğurdu. Gözlənilirdi ki, informasiya şəffaflığı sosial qeyri-bərabərliyi tədricən azaldar, dövlət funksiyaları getdikcə azalar və cəmiyyətin hakimiyyət üzərindəki nəzarəti güclənər. Lakin bu ümidlər özünü doğrultmadı. Buna baxmayaraq, beynəlxalq dairədə antidemokratik rejimlərin tənqidi və ifaçısı sahəsində internet geniş imkanlara malikdir. Digər tərəfdən, internet millətlərin, dövlətlərin bir-birini tanımasında, milli mədəniyyətlərin dialoqunda və, elmi-texniki tərəqqinin inkişafında mühüm amilə çevrilməkdədir. Bütün bu kimi məsələlərin həlli isə şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsinə doğru yönəlmişdir.

İnformasiya cəmiyyətində sosial-iqtisadi və mənəvi-mədəni inkilər aləminə inteqrasiyası bir sosial tələbat kimi meydana çıxır. Müasir ümumbəşəri dəyərlər sırasında, ilk növbədə, demokratik dəyərlər - insan haqları, qanun aliliyi, sosial ədalət, söz və toplantı azadlığı və s. tələblər gündəmə gəlirdi.

Müstəqil dövlətçiliyin ilk on ili ərzində sosial-iqtisadi və daxili, xarici siyasət sahələrində aparılan islahatlar sayəsində ölkə daxilindəki böhranlı vəziyyət nisbətən səngimiş və nəhayət, milli mədəniyyət sahəsində dövlət siyasətini müəyyənləşdirmək üçün imkan yaranmışdır. Mədəniyyət sahəsində yaranmış vəziyyəti yaxşılaşdırmaq üçün ölkə Prezidentinin "Azərbaycan simfonik orkestrinin fəaliyyətini yaxşılaşdırmaq haqqında", "Yaradıcı ziyalıların fərdi pensiyalarla təmin edilməsi haqqında", "Qırmızı kitaba daxil edilən gənc istedadların fərdi təqaüdlərlə təmin edilməsi haqqında", "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının sosial təminatı haqqında", "Gənc yazıçıların fərdi təqaüdlərlə təmin edilməsi haqqında" fərmanları dərc olunmuşdur.

Sonrakı illərdə, - "2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası" işlənib-hazırlanmışdır. Bu konsepsiyada mədəniyyət sahəsində əsas prioritetlər kimi, aşağıdakılar irəli sürülmüşdür: mədəni və tarixi irsin mühafizəsi; yaradıcılığın dəstəklənməsi; mədəni sahənin hüquqi, elmi- informativ inkişafı; kadr hazırlığı və gənc istedadların dəstəklənməsi; milli kinematoqrafiyanın dirçəlişi və inkişafı; mədəniyyət turizmi infrastrukturunun yaradılması və inkişafı, kitab nəşrinin inkişafı.

Bununla belə, yeni texniki nailiyyətlərə bəzi mütəfəkkirlərin münasibəti birmənalı deyil. Məsələn, tanınmış alman filosofu M.Haydegger "Texnika məsələsinə dair" öz traktatında texnikanın mahiyyəti məsələsini geniş təhlil edərək, belə bir nəticəyə gəlir ki, texnika öz mahiyyəti etibarilə, sözün yüksək mənasında, ikimənalıdır. Yəni texnika bir tərəfdən yüksək əmək məhsuldarlığı yaradırsa, digər tərəfdən, özlüyündə bir təhlükə mənbəi olduğunu gizlədir. Belə ki, bu gizli təhlükə məqamı gələndə, üzə çıxıb bəşəriyyəti çıxılmaz vəziyyətə sala bilər. Alim həmin təhlükəni konkret şəkildə açıqlamır. Fikrimizcə, o, yəqin aləm enerjisindən istifadəni və atom bombalarının mövcudluğunu nəzərdə tutmuşdur.

Bəzi informasiya cəmiyyəti nəzəriyyəçiləri siyasi münasibətlərdə tarixən baş verən dəyişiklikləri də diqqət mərkəzinə çəkirlər. Məsələn, görkəmli Amerika yazıçısı və futuroloqu A.Toffler tarixi prosesdə üç hökmranlıq vasitələrinin, -güc, zənginlik və bilik, - öz yerini dəyişdiyini nəzərə çatdırır. Onun fikrincə, əvvəlki dövrlərdə güc və maliyyə zənginliyi əsas hakimiyyət vasitələri idisə, üçüncü - postindustrial dövrdə bilik siyasi təzyiq və kapitaldan daha üstün mövqeyə malik olur.

Şaf keyfiyyət etibarilə yeni resurs olan informasiya istehsalı, onun saxlanması, cəmiyyət üzvləri arasında yayılması və tətbiqinə söykənir. Cəmiyyətin informasiyalaşması çoxşaxəli proses olub sosial-iqtisadi, siyasi və mədəni inkişafın bir-birilə üzvü surətdə əlaqələndirilməsini tələb edir. Transformasiya dövründə sostal-iqtisadi islahatlarla yanaşı, dövlətin mədəniyyət sahəsində siyasəti xüsusi əhəmiyyət kəsb edərək, aktuallaşır. Qloballaşma prosesilə əlaqədar olaraq, bu aktuallaşma iki qat artmış olur. Bu dövrdə milli dövlətçilik, milli-mədəni yeniləşmə və mədəni suverenlik istiqamətləri üst-üstə düşərək, bir-birini tamamlayır. Sosial həyatda baş verən iqtisadi və siyasi böhran, xüsusən, işsizliyin yüksək səviyyəsi, mənəvi-psixoloji gərginlik mədəniyyət sahəsində də müəyyən gərginlik və böhran halı yaradırdı. Buna baxmayaraq, milli müstəqilliyin təkrar əldə olunması ilə milli qürur duyğusu milli özünüdərkini gücləndirərək, milli-mənəvi dəyərlərin, adətənənələrin dirçəlişinə yol açdı. Bunlar isə, öz növbəsində, milli bütövlüyün və milli identikliyin güclənməsi ilə müşayiət olunurdu. Digər tərəfdən, dünya ölkələri aləmində başlanmış qloballaşma prosesi ilə əlaqədar olaraq, hər bir milli mədəniyyətin müasir ümumbəşəri dəyər-

Ümumbəşəri tarixi-mədəni inkişafın XX əsrin sonu və XXI əsrin əvvəllərində bir mərhələ kimi meydana çıxan qloballaşma və milli mədəniyyətlərin dialoqu Azərbaycan milli mədəniyyəti qarşısında da müəyyən nəzəri-praktik məsələlər qaldırmış oldu. Bir tərəfdən, həmin proses Qərb sivilizasiyasının nailiyyətlərindən istifadə imkanları açdı. Digər tərəfdən, Qərb sivilizasiyasında baş verən böhran hallarından qorunması vəzifəsini gündəmə gətirdi. Birinci istiqamət üzrə Qərbi Avropa ölkələrinin əldə etdiyi elmi-texniki nailiyyətlərdən bəhrələnmək zərurəti özünü göstərməkdə idi. İkinci istiqamət üzrə isə, Azərbaycan milli mədəniyyətini Qərb sivilizasiyasında baş verən böhranın təsirilə meydana çıxan aşınmalardan qorunmaq vəzifəsi idi. Üçüncü istiqamət isə, Qərb aləmini və dünya ictimaiyyətini Azərbaycan mədəniyyətinin tarixi zənginliyi ilə və müasir nailiyyətləri ilə tanış etmək vəzifəsi idi.

Azərbaycanın müxtəlif dünya ölkələri ilə, siyasi-iqtisadi sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələri ilbəil genişlənir. Bu əməkdaşlığın inkişafına qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi də əhəmiyyətli töhfə verməkdədir. Belə tədbirlər sayəsində dünya xalqları Azərbaycanın, xalqımız isə, dünya ölkələrinin mədəniyyəti və sənət inciləri ilə tanış olur.

Cari ildə (2012) ikinci Bakı Beynəlxalq Humanitar Forumu mədəniyyətlərarası dialoqa töhfə odu. Bu forumun qəbul etdiyi bəyannamədə dünya ictimaiyyəti Azərbaycanın dünyada multikultiralizm problemlərinin tədqiqi üzrə xüsusi mərkəzin yaradılması ilə bağlı təşəbbüsünü müdafiə etməyə çağırılır.

Hər il Qədim Qəbələ şəhərində keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı (cari 2012-ci ildə IV) da mədəniyyətlər dialoqunun mühüm amillərindən birinə çevrilməkdədir. Festivalın sonuncu günü Filarmoniyada (Bakı) Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti ilə festivala yekun vurulmuşdur. İtaliyalı dirijor Yanqluk Maqiano, solistlər Annadela Veqa (fleyta-Argentina), Şəhla Əlizadə (arfa) klassik musiqi əsərlərini səsləndirmişlər.

Azərbaycan paytaxtı beynəlxalq musiqi yarışmasına ev sahibliyi etdi. Oktyabrın 29-da (2012) Azərbaycan Dövlət Filarmoniyasında Mədəniyyət və Turizm Nazirliyi və Bülbül Fondunun təşkilatçılığı ilə Vokalçıların Bülbül adına VI Beynəlxalq Müsabiqəsi başlandı. Sənət yarışmasında 14 ölkədən 60-dan çox vokalçı iştirak etdi.

Bəstəkar Firəngiz Əlizadə 10 il ərzində Azərbaycan simfonik musiqisini Avropa ölkələrində təbliğ etmişdir. Müğənni Alim Qasımov isə Avropa ictimaiyyətini muğam musiqisi ilə tanış etmişdir.

Beynəlxalq müsabiqələr laureatı, dirijor Əyyub Quliyev Rumıniyada konsert proqramı ilə çıxış etmişdir. Konsertdə Avropa, Azərbaycan və Cənubi Amerika musiqisi nümunələri səsləndirilmişdir. "Koroğlu" operasının uvertürası alqışlarla qarşılanmışdır. Fransanın müxtəlif regionlarında milli mədəniyyətimizin təbliği ilə bağlı layihə həyata keçirilmişdir. "Qafqazın mirvarisi Azərbaycanın mədəni dəyərləri" adlı layihə oktyabrın 10-dan (2012) həyata keçirilməyə başlamışdır. Bütün bu kimi tədbirlər ilə Azərbaycan milli mədəniyyətinin dünya miqyasında tanıtdırılması milli mədəniyyət siyasətinin reallaşdırılması işinin tərkib hissəsidir. Bu istiqamətdə Ümummilli Lider Heydər Əliyev Fondunun sədri Mehriban Əliyevanın və Dövlət Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyəti təqdir ediləndir.

**Vahid ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

# Arı sancması zamanı nə etməli?



Arı və ya eşşək arısı sancması çox təhlükəli ola bilər. Allergiyaya meyilli olan insanlarda, uşaqlarda bu ağır allergik reaksiyanın, hətta anafilaktik şokun inkişafına gətirib çıxarda bilər. Arı və eşşək arıları insanları yalnız təhlükə hiss etdikdə sancır. Bu səbəbdən həşəratları görəndə dərhal təşvişə düşməyin, onları qovmağa çalışmayın, sakit qalın. Eşşək arıları insanları daha tez-tez sancır və onların sancmaları daha ağrılıdır.

Dil, dodaq, qırtlaq və üz nahiyəsinin sancılması çox təhlükəli hesab olunur. Çoxlu sayda sancmalar zamanı ağır intoksikasiya (zəhərlənmə) inkişaf edə bilər. Bu halda insanı dərhal xəstəxanaya çatdırmaq lazımdır. Arı və ya eşşək arısı sancmasından dərhal sonra insana hər hansı allergiya əleyhinə (antihistamin) dərman vermək lazımdır (klaritin, tavegil, zirtek, suprastin, diazolin). Bunu hətta bu insanda heç zaman allergiya olmayıbsa belə, mütləq edin. Xüsusilə də zərərçəkmiş uşaqdırsa.

Ağrı çox narahat edirsə hər hansı ağrıkəsici preparat (parasetamol, ibuprofen, analgin, aspirin) vermək olar. Uşaqlara hərarətsalan preparatlardan biri verilir. Bu preparatlar həmçinin ağrıkəsici kimi istifadə olunur. Zədələnmiş yeri axar su ilə yuyun, istənilən antiseptik ("perekis", spirt, yod və s.) vurun.

Zərərçəkmişə bol maye (isti çirin çay, şirin su və s.) verin.

Əgər həşəratın sancmasından sonra allergiyanın əlamətləri (ümumi zəiflik, baş ağrısı, başgicəllənmə, ürəkbulanması, arterial təzyiqin kəskin enməsi, nəbzin artması, təngnəfəslik, bəzən hətta qıcolmalar və bayılma) meydana çıxıbsa, xəstəni dərhal xəstəxanaya çatdırın.

# İtburnu: qızardıqca keyfiyyəti azalır...

Yabanı kol bitkisi olan itburnunu el arasında bəzən "vəhşi qızılgül" adlandırırlar. Ona hər yerdə - meşə ətraflarında, dağ ətəyində, parkda, çay sahilində və yol kənarında rast gəlmək olar. Bir çox alimlər İranın və Himalayın dağlıq ərazilərini itburnunun vətəni hesab edirlər. İndi Yer kürəsində buzlaq, tundra və səhralardan başqa hər yerdə bitir. Onun giləmeyvələri heyvan və quşları da özünə cəlb edir. İtburnu meyvələri şaxtalar düşənə qədər yığılmalıdır, çünki ən zəif şaxta da onun dərman keyfiyyətlərini məhv edir. Düzgün qurudulan itburnu meyvələrini ağzı bağlı bankada və ya kisədə iki il saxlamaq olar.

AZƏRTAC tibbi nəşrlərə istinadla xəbər verir ki, itburnunun narıncı meyvələri faydalı maddələrin ən böyük konsentrasiyasına malikdir. Giləmeyvələr qırmızı rəng alanda tərkibindəki vitaminlərin miqdarı bir qədər azalır. Giləmeyvələrdə olan vitamin və mikroelementlərdən qanazlığı, ateroskleroz və xəstəliklərdən sonra orqanizmin zəifləməsi zamanı istifadə edilir. Həm də giləmeyvələri askorbin turşusunu limon və qarağatdan daha çox özündə saxlayır, o, təbii antioksidantdır, faydalı xüsusiyyətləri arasında bakterisid təsiri də var.

Rusiyada ənənəyə görə, soyuq qış günlərində itburnu giləmeyvələrinin dəmlənilərək içilməsi qışı soyuqdəymə xəstəliklərinə yoluxmadan keçirməyə səbəb olur. Çin təbabətində itburnunun köklərindən istifadə etməklə həzmi gücləndirmək və bağırsaq qurdlarının çıxarılması təcrübədən keçirilib. Tibetdə vərəm, nevrasteniya və ateroskleroz itburnu meyvələri ilə müalicə edilir. Sibirdə balda bişirilmiş itburnu ləçəkləri ilə qızıl yel xəstəliyi müalicə edilirdi. Bitkinin köklərdən alınan cövhər ayaq göbələyini sağaldır.

Xalq təbabətində bitkinin bütün hissələrindən - çiçək, meyvə, yarpaq və köklərindən istifadə edilir. Həmin məhsullardan alınan təbii vasitə artritin, qan azlıqları, sidik-cinsiyyət üzvlərinin müalicəsində istifadə olunur. İtburnudan hazırlanan məlhəmlər dermatit, ekzema, trofik yara, yanıqlar, donmalar və psoriazın müalicəsində tətbiq edilir. Sətəlcəm, difteriya, skarlatin, göyöskürək zaman itburnu ekstraktı, sirop və cövhəri çox xeyirlidir.


## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin II kurs tələbəsi Şirinova Nuranə Asif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**



# səs

Son səhifə 30 dekabr


# Cüdo üzrə Azərbaycan çempionatı başa çatıb




Bakı İdman Sarayında kişilər, qadınlar və usta cüdoçular arasında təşkil olunan Azərbaycan çempionatına yekun vurulub. Üç gün davam edən respublika çempionatında bütün qaliblər müəyyənləşib. SİA-nın məlumatına görə, yarışın sonuncu günündə kişilər arasında 100 kq və 100 kq-dan yuxarı çəki dərəcələrində ölkə çempionları məlum olub. Adil Kərimli və Şahin Qəhrəmanov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar.

Usta cüdoçuların mübarizəsində isə bütün yaş qrupları və çəki dərəcələrində qaliblər bilinib. Komanda yarışlarında "Neftçi" birinci, "Atilla" ikinci, Uşaq Gənclər İdman Məktəbi isə üçüncü olub. Qaliblərə mükafatı Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov təqdim edib. Azərbaycan Cüdo Federasiyasının dəvəti ilə respublika çempionatının daha şəffaf keçirilməsində yaxından iştirak etmiş Avropa Cüdo İttifaqının Hakimlər Komitəsinin rəhbər üzvlərinə xatirə hədiyyələri təqdim olunub.

# Ronaldo "Ballon d'Or" mükafatını geri qaytarmaq istəyir



Kriştiano Ronaldo şok qərar verib. SİA-nın məlumatına görə, "Real"ın portuqaliyalı ulduzu bu il qazandığı "Ballon d'Or" mükafatını geri qaytarmaq istəyir. İddialara görə, "Barselona"ya 0:3 hesabı ilə yenildikləri oyundan sonra paltardəyişə otağına girən Ronaldo komanda yoldaşlarına "Bu mükafatı haqq etmirəm və geri qaytaracam" deyib. Futbolçu daha sonra "France Football" nəşrinin rəhbərinə zəng edərək qərarını ona da bildirib: "Tarixin ən yaxşısı olduğumu söylədim, amma dünya şahid oldu ki, ən yaxşı Messidir. Mükafatı geri qaytarmaq istəyirəm". Bildirilir ki, "France Football"un rəhbəri Ronaldonun bu sözlərinə "Həyatımda belə şey görmədim" deyərək reaksiya verib. Komanda yoldaşları, ailəsi və yaxın dostu Badr Hari onu bu qərarından döndərə bilməyib.

# "Neftçi" klubu heyətinə yeni futbolçu cəlb edib




"Neftçi" klubu heyətinə yeni futbolçu cəlb edib. AZƏRTAC klubun saytına istinadən xəbər verir ki, qapıçı Aqil Məmmədovla mövsümün sonunadək müqavilə bağlanıb. Tərəflərin istəyinə əsasən, mövsümün sonu müqavilə daha bir illik uzadıla bilər. Qeyd edək ki, 28 yaşlı qapıçı 2015-2016-cı illərdə "Neftçi"nin şərəfini qoruyub. Onun son klubu isə "Qəbələ" olub.

# "Qvardiola "Mançester Siti"yə "Barsa"nın kodlarını yükləyir"

"Barselona"nın sabiq futbolçusu Xavi Hernandez "Mançester Siti"nin cari mövsümdəki çıxışını dəyərləndirib. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, 37 yaşlı yarımmüdafiəçi Xosep Qvardiolanın başçılıq etdiyi ingilis klubunu vaxtı ilə oynadığı "Barsa"ya bənzədib: "Qvardiola "Mançester Siti"yə "Barselona"nın kodlarını yükləyir. Pepin komandaları kollektiv oyunla qələbə qazanırlar. Amma buna baxmayaraq, hərdən özəl futbolçulara ehtiyac duyulur. "Barselona"da Messi var idi, "Mançester Siti"də isə Kevin de Bruyne. Top onda olanda xüsusi nəsə edəcəyini hiss etdirir". Qeyd edək ki, "Mançester Siti" İngiltərə Premyer Liqasında 20 turdan sonra (19 qələbə, 1 heç-heçə) 58 xalla turnir cədvəlinə başçılıq edir. "Şəhərlilər" ən yaxın izləyicisi "Mançester Yunayted"i 15 xal qabaqlayır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**